

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# Cıdır düzündən "Xarıbülbül"ün sədası




5

№ 083 (6766)

13 may 2023-cü il.
Qiyməti 60 qəpik

# Dəmir yumruq küçəsi-qürur küçəsi!



2

# Türkiyə kritik seçki ilə üz-üzə!



6

## Əfvdən sonrakı həyat necə olacaq?



8

## Yenidən qurulan və bərpa olunan ziyarətgahlar: SAATLI MƏSCİDİ



11

## “"Şirinlik" təhsilimizə başucalığı gətirən əlamət deyil"



16

## Diaspor quruculuğu prioritetdir




9

## Normadan çox su içmək zəhərlənməyə səbəb ola bilər



16

# Dəmir yumruq küçəsi-qürur küçəsi!




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mayın 10-da Şuşada Dəmir Yumruq küçəsinin lövhəsinin açılışında iştirak etdiklərini izləyərkən ürəyimiz qürur hissi ilə doldu. Həqiqətən də nə gözəl hissdir ki, torpaqlarını işğaldan azad edib, düşmən üzərində qələbə çalasan. Onun başına dəmir yumruq endirib deyəsən ki, bu torpaqlar sahibsiz deyil ki, sən yiyələnəsən. Çəkil, dur, həddində.***



Elə 2020-ci ildə belə də oldu. 90-cı illərin havasında olan düşmən gözləmədiyi həmlə ilə qarşılaşdı. Bir zamanlar havadarlarının köməkliyi ilə işğal etdikləri torpaqlara əbədi sahiblənmək arzuları 44 gündə başlarında çatladı. Azərbaycan xalqı öz rəhbəri ətrafında birləşdi. Həm mənəvi cəhətdən, həm də gücü ilə. Hər iki birlik hissi dəmir yumruğa çevrilib düşmənin başına elə zərbə endirdi ki, Qarabağ sözünü bir də dilə gətirməməyə and içdilər...



## Qürur küçəsində düşüncələr...

Dəmir Yumruq küçəsinin lövhəsinin açılışını televiziyadan izləyərkən xəyalən 2020-ci ilin o ayazlı-soyuqlu payız günlərinə qayıtdım. Sentyabrın 27-si idi. Ölkəmizin başçısı səhər saatlarında televiziya vasitəsilə xalqa müraciət edirdi. Gecədən ermənilər yenə də çızıqlarından çıxmış, yeni torpaqlar iddiası ilə hücumlara başlamışdılar. Bizimsə səbir kasamız dolmuş, artıq düşməni yerində oturmağın vaxtı çatdığına qərar vermişdik. Bu səbəbdən də dövlətimizin başçısı xalqa müraciət edirdi. Müharibənin başlandığını da bu müraciətdən anladıq.

Ürəklərimiz qəmdən çox, sevinc hissi ilə doldu. Çünki biz torpaqlarımızın işğaldan azad olunmasını ötən 30 ilin hər saatı, hər anında arzulamışdıq. Hər dəfə kimsə bizə "torpaqlarınızı nə vaxt alacaqsınız?" deyəndə utandığımızdan yerin yeddici qatına keçirdik. Bəli, bu, bir utanc hissi idi. Çünki insan övladı üçün torpağı onun namusu, qeyrətidir. O, düşmən əlində qala bilməz. Bunun üçün minlərlə can getsə də, minlərlə insan sağlamlığından keçsə də, ümumilikdə xalq məhv olsa da, lakin bu yolda ölmək qürurdan, xoşbəxtlikdən başqa bir şey deyil. Ya bütöv ərazi ilə yaşamaq, ya da yaşamamaq. Bu iki yoldan birini seçməlidir insan.

90-cı illərdə çox mücadilə etdik. Hansı ki, 1988-ci ildən ermənilər iddialara başlamışdı. Bir-birinin ardınca torpaqlarımızı zəbt edirdi. Əslində erməni kimdir ki, bizdən torpaq ala. Havadarları, arxalarında duranlar olmasaydı, heç ərazilərimizdən bir daş da götürə bilməzdilər. Lakin arxalı olmaları, bizim ozamankı səriştəsiz rəhbərlərin satqınlığı ilə Qarabağımız əlimizdən getmişdi. Mücadilələr aparmışdıq, minlərlə şəhid vermişdik, lakin heç nəyə nail ola bilməmişdik.

## Aradan 30 il keçirdi...

2020-ci ilin o payız günlərinə kimi torpaqlarımızın yağı əlində olmasından düz 30 il keçirdi. Bu 30 ilin hər anında dövlətimizin başçısı torpaqlarımızın sülh yolu ilə qaytarılması üçün mübarizə apardı. Beynəlxalq təşkilatlara üz tutdu, onları danışıqlara dəvət etdi, lakin səsimizi eşidən olmadı. Belə olanda bir yol qalmışdı qarşıda-müharibə yolu. Bu yolla torpaqlarımızı geri ala bilərdik. Bu yol üçün də hazırlığımız vardı. Çünki dövlətimizin başçısı hər zaman deyirdi ki, ərazilərimizin sülh yolu ilə alınması mümkün olmasa, biz hərb yolunu seçəcəyik.

Bəli, biz 30 il əvvəlki Azərbaycan deyildik. 30 il əvvəl tənəzzülə uğramış iqtisadiyyatımız dirçəldilmişdi, ölkədə bütün sahələrdə inkişaf əldə olunmuşdu. Ordumuz da 30 il əvvəlki ordu deyildi, təkmilləşdirilmişdi, möhkəmləndirilmişdi.

Ölkəmizdə yaradılan mühit insanların sosial rifahı ilə nəticələnmişdi. Xalq 30 il əvvəl çörək növbələrində axşamlayıb, səhərləyən xalq deyildi. Talon əllərində neft növbələrində sıra gözləyən insanlar da deyildilər.

Zaman ötmüş, respublikamız inkişaf etmiş, müstəqilliyin bəhrəsini dadmışdı. Ölkəmizdə Ulu Öndərimiz Heydər Əliyevin ideyaları davam etdirilirdi. Dövlətimiz əmin əllərdə idi. Bu əllər Azərbaycanı inkişafa, tərəqqiyə doğru bir yola yolçu etmişdi. Ölkəmizdə vətənpərvər gənclər yetişirdi. Bir əmrə müntəzir idilər ki, torpaqlarımızı azad etmək üçün düşmənin üzərinə sıçrasınlar.

Və hər birimizin ürək döyüntüsü olan o gün gəlib yetişmişdi. 27 sentyabr arzularımıza aparan gün kimi tariximizə həkk olundu. Biz bütöv bir xalq olaraq Qarabağımızı işğaldan azad etməyə hazır idik. Çünki səriştəli, bacarıqlı bir sərkərdənin rəhbərliyi altında idik. Ali Baş Komandanımız torpaqlarımızın azadlığına gedən yolları ən kiçik ştrixlərinə kimi işləyib hazırlamışdı. Haradan başlayıb harada Zəfərə qovuşacağımızı O, müəyyən etmişdi.

## Çox yaxşı bilirdik ki...

Bəli, çox yaxşı bilirdik ki, müharibə nədir. Onun acıları, ağrıları, qanı-qadası nədən ibarətdir. Çünki biz 1941-1945-ci illərdə xalqımızın cəlb olunduğu İkinci Dünya Müharibəsini demirəm, Birinci Vətən Müharibəsini görmüş insanlardıq. Bu səbəbdən də müharibə sözünü bütün mahiyyəti ilə anlayırdıq. Bilirdik ki, müharibə minlərlə itki deməkdir. Minlərlə sağlamlığını itirən insan deməkdir. Minlərlə evin, həyətin, obyektin dağılması deməkdir. Bilirdik ki, müharibə minlərlə ailənin övlad dağı idi, minlərlə uşağın atasızlığı idi. Minlərlə cavan gəlinin qara yaylığı deməkdir. Minlərlə nişanlı qızın gömülmüş arzuları idi.

Ardı Səh. 3



# Dəmir yumruq küçəsi-qürur küçəsi!








Əvvəli-Səh-2

Bütün bunları bilirdik və göz önünə almışdıq. Çünki bizim namusumuz, qeyrətimiz bütün hisslərimizdən, sevgilərimizdən daha üstün, daha əziz idi. Biz itirməyə, qurban verməyə hazır idik, şərəfimizi qaytarmaq üçün. Biz ölməyə hazır idik, Qarabağımızı diriltmək üçün. Biz məhv olmağa hazır idik, torpağımızın bir qarışının belə yağı düşmən əlində qalmaması naminə.

Beləliklə də “müharibə başlayır” sözlərini eşidəndə kədərlənməkdən çox sevindik. Çünki qanımızda coşan torpaq məhəbbəti bütün məhəbbətlərdən irəlidir bizim üçün. Çünki qanımızdakı qeyrət, şərəf, namus baladan, ata-anadan, ev-eşikdən, var-dövlətdən üstündür. Biz onlarsız yaşaya bilərik, lakin şərəfsiz yaşaya bilməzdik. Odur ki, sevindik. Bəlkə də dünyada ilk dəfə olan bir hadisədir ki, müharibə başlayanda insan sevinə. Bu, Azərbaycanda baş verdi. Qoy tarixə də yazılsın bu. Qürur duyarıq. Qürur duyarıq ki, biz namus, qeyrət, şərəfimizi qurtarmaq üçün ölümə gedəndə sevinə-sevinə, gülə-gülə getdik.




### Dəmir yumruq ətrafında

20 ildir ki, bu xalq dövlətinin başçısı ətrafında sıx birləşib. Xalq-dövlət birliyi, həmrəyliyi yaranıb ölkəmizdə. Xalq ötən 20 ili 30 il əvvəlki illərlə müqayisə edəndə gördüyü fərq sayəsində həmrəy ola bilib. Gördüyü dövlət rəhbərləri arasındakı fərq bu keyfiyyətləri aşılayıb onlara. Xalq görüb ki, torpaqları satanlar, minlərlə şəhidimizə səbəb olanlar da var idi. O torpaqların azad olunması üçün illərlə iş aparan rəhbər də var. Bütün bayramlarda xalqa müraciətlərində bir gün torpaqlarımızın azad olunması üçün mübarizələrin davam etdiyini söyləyən, insanlarda buna inam hissi yaradan dövlət rəhbəri də var. Bu inam xalq-dövlət birliyi ilə nəticələndi. Çox təbii ki, bu birlik müharibə dövründə də dəmir yumruqda birləşəcəkdi. Birləşib böyük bir gücə çevriləcəkdi ki, düşməni torpaqlarımızdan bir dəfəlik qovub çıxara bilsin.

Birləşdik və gücümüzü düşmənə göstərdik. Bütün düşüncəsi ilə 30 il əvvəldə qalan düşmən başında dəmir yumruğun zərbəsini elə hiss etdi ki, məhz bu an nə qədər səhv etdiyini, səhv düşüncədə olduğunu anladı. Anladıqca da geri çəkildi. Dəmir yumruq düşmənə elə bir dərs verdi ki, tarixdə görmədiyi dərs oldu.

Bir-birinin ardınca azad edilən yurdlarımıza sancılan üçrəngli bayrağımız bu dəmir yumruğun nəyə qadir olduğunu bütün dünyaya sərgilədi. Ağdamın, Füzulinin, Zəngilanın, Cəbrayılın, Kəlbəcərin, Laçının, Şuşanın 30 illik nisgilinin dərsini verdi düşmənə dəmir yumruq. Bu yurdların minlərlə sakininin 30 ildə məcburi köçkünlük həyatının acısının əvəzini düşmənə ödədi dəmir yumruq. Bu ərazilərimizdə daşı daş üstündə qoymayan düşməndən dağıtdıqları, yerlə yeksan etdikləri minlərlə abidələrin, məktəb, xəstəxana, mədəniyyət obyektlərinin, tarixi abidələrin, məscidlərin bir-bir qisasını aldı dəmir yumruq. Həmçinin də həm birinci, həm də ikinci Vətən müharibələrində şəhid olan minlərlə oğul-qızımızın, sağlamlığını itirən minlərlə qazinin qisasını aldı dəmir yumruq. Ümumilikdə isə dəmir yumruq bütövlükdə Azərbaycan xalqının 30 ildə çəkdiyi ağrı-acının qisasını aldı.

### Qürur küçəsinə xoş gəlmisiniz!

Şuşada Zəfərlə bitən İkinci Vətən Müharibəsi qürurumuzdur. Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsini təmin edən və xalqımızın sarsılmaz birliyinin rəmzinə çevrilən Dəmir Yumruğun şərəfinə elə Şuşada salınan küçə şəhərin mərkəzi hissələrini əhatə edir. Bu küçənin adı hər dəfə çəkiləndə qürurumuz da onunla birlikdə yenilənəcəkdir. Çünki bizim üçün Dəmir yumruq, qürur və Zəfər sözlərinin anlamı birdir.

Dəmir yumruq küçəsinin salınmasına elə bu səbəbdən sevindik. Bir anlığa müharibədə itirdiyimiz şəhidlərimizi xatırladıq. Ürəyimiz yenə şan-şan oldu. Sağlamlığını Qarabağda qoyub gələn qazilərimizi düşündük. Onların minlərlə ata-anasını, bacı-qardaşını, övladlarını, həyat yoldaşlarını gözlərimiz önündə canlandırdıq. Lakin yenə də əvvəldə dediyim kimi, biz ölümə bu gün də hazırıq, ta ki, ərazi bütövlüyümüzə xələl gəlməsin.

Qoy Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin ruhları şad olsun, qazilərimizə Allah sağ can nəsib etsin, valideynlərimizin səbrini versin.

Bu qürur küçəsini bizə dövlətimizin başçısı, onun sərkərdəsi olduğu Milli Ordumuzun əsgər və zabitləri, vətənpərvər övladlarımız bəxş edib. Bu küçə onların küçəsidir. Dəmir yumruq ətrafında birləşən bütün insanların küçəsidir. Qürur küçəsidir. Belə isə Dəmir Yumruq lövhəsi ora gələn bütün insanlara bu cür səslənəcək: Qürur küçəsinə xoş gəlmisiniz!

***Mətanət Məmmədova***



*Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan Azərbaycan xalqına müraciətində deyib ki, Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq.*

# XXI əsr Azərbaycan üçün ən xoşbəxt dövr olacaq



## *İLHAM ƏLİYEV: "Heydər Əliyevin neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, Qarabağı, Zəngəzuru yenidən quraq"*

“1994-cü ildə “Əsrin kontraktı”, 1996-cı ildə “Şahdəniz” qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir”, – deyən dövlətimizin başçısı əlavə edib ki, bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür.

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN NEFT SƏNAYESİNİN MODERNLƏŞMƏSİNDƏ ROLU

Müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün ümummilli lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. Bu strategiya xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlənilməsinə cəlb edilməsini, xam neftin daşınma yollarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə olunmasını və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi.

1969-cu ildə birinci dəfə respublikamıza rəhbərliyi illərində Heydər Əliyev milli iqtisadiyyatda tarixən həlledici rol oynamış neft sənayesinin əvvəlki şöhrətini özünə qaytarmaq, mövcud təbii və intellektual potensialdan səmərəli istifadə etməklə bu sahənin dinamik inkişafına nail olmaq vəzifəsini qarşıya qoydu. ”Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir”,- deyən ulu öndər Heydər Əliyevin neft strategiyası Azərbaycanın güclənməsinə xidmət edib.

Belə ki, Azərbaycanın iqtisadi tərəqqisinə, dünya iqtisadi sisteminə inteqrasiyasına yol açan, əbədi müstəqilliyimizi, xalqımızın yüksək rifahını təmin edən və dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkətinin iştirakı ilə tarixə “Əsrin müqaviləsi” kimi daxil olan sazişin imzalanması Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının uğurla reallaşması Azərbaycanın güclənməsinə xidmət edir.

””Əsrin müqaviləsi” ilə qoyduğumuz təməl 21-ci əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, 21-ci əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır”. Ümummilli lideri Heydər Əliyevin uzaqgörənliklə söylədiyi bu sözlər artıq bu gün tam təsdiqini tapıb. Ulu öndərin müdrikliklə, dərin inam və qətiyyətlə, məqsədyönlü, ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət nəticəsində Azərbaycan milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərə bilib.

### ULU ÖNDƏRİN UĞURLU NEFT STRATEGİYASI PREZİDENT İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ AZƏRBAYCANI DÜNYANIN APARICI DÖVLƏTLƏRİ İLƏ BİR SIRAYA YÜKSƏLTDİ

Bəli, bu gün ulu öndərin təməlini qoyduğu uğurlu siyasəti ölkə Prezidenti İlham Əliyev uğurla, layiqincə davam etdirərək Azərbaycanı dünyanın aparıcı dövlətləri ilə bir sıraya yüksəltdi. Son illər ölkəmizin sosial-iqtisadi, mədəni həyatında, əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində əldə etdiyi uğurlar da məhz düşünülmüş fəaliyyətin nəticəsidir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əgər keçmişdə bizim ölkənin təşəbbüsləri regional kontekstdən kənara çıxmırdısa indi, mövqe, addımları və təşəbbüsləri qitənin enerji xəritəsinə mühüm dəyişikliklər gətirir. Bəli, bugünkü reallıqlarımız Azərbaycanın qarşıya qoyduğu bütün hədəflərə yüksək səviyyədə çatdığını təsdiqləyir. Dövlət başçısı İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə xalqa müraciətində bu məqamı xüsusi olaraq bildirmişdir: ”Gəlin fərz edək ki, əgər 1994-cü ildə ”Əsrin müqaviləsi” bağlanmasaydı, nə olardı, əgər çətin, ağır şəraitdə Heydər Əliyevin səyləri nəticəsində biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlamasaydıq nə olardı? Azərbaycan hansı problemlərlə üzləşərdi? İndi Azərbaycanın dünyadakı mövqeləri necə ola bilərdi? Əlbəttə, bunu təsəvvür etmək çətin deyildir. Bu gün Azərbaycanın inamlı inkişafının əsas səbəbi məhz 1990-cı illərin ortalarında ulu öndər Heydər Əliyev tərəfindən başlanmış neft strategiyasıdır. Bu neft strategiyası bizə böyük imkanlar yaratdı, böyük imkanlar da yaradacaqdır və biz bundan səmərəli istifadə edəcəyik”.

Bəli, ötən müddət ərzində Azərbaycan ”Əsrin müqaviləsi”ndən geniş bəhrələndi. Ölkənin beynəlxalq aləmdə nüfuzu xeyli artdı, etibarlı tərəfdaş imici formalaşdı və əsas faktorlardan biri kimi, Azərbaycan zəngin məmləkətlərdən birinə çevrildi.

Bu gün isə, Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi müdrik siyasəti nəticəsində Azərbaycanı zirvələrə yüksəltdi. Və dövlət başçımızın dediyi kimi: ”Bu uğurların davamı kimi “Yeni Əsrin müqaviləsi” imzalandı və neft kontraktlarının müddəti 2050-ci ilə qədər uzadıldı”.

Bir sözlə, ”Əsrin müqaviləsi”ndən ”Yeni Əsrin müqaviləsi”nə gedən yola, Prezident İlham Əliyev bu istiqamətdə həyata keçirdiyi müdrik siyasəti nəticəsində neft strategiyasını daha da zənginləşdirərək yeni layihələrə imza atdı. Artıq qələbəmizin iki ili ərzində ölkəmizin həyatında yeni mərhələ-işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması uğurla həyata keçirilir. Həmçinin iqtisadi rayonların yeni bölgüsü, ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiqlənməsi də qarşıdakı dövrün aydın mənzərəsini yaradır.

### QARABAĞI VƏ ŞƏRQİ ZƏNGƏZURU FAKTİKİ OLARAQ YENİDƏN QURURUQ VƏ QURACAĞIQ

Prezident İlham Əliyevin zəfərdən ötən bu ikiillik qısa zaman kəsiyində mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfərlər etməsi, erməni vəhşilərinin yerləyeksan etdiyi qədim şəhərlərimizin yeni bünövrələrini qoyması, yeni yolların, tunellərin, beynəlxalq hava limanlarının təməllərini atması, bütün infrastrukturu başdan yaratması Böyük qayıdışın tezliklə reallaşdırılmasına mühüm təkan verdi. Azərbaycan ağır müharibədən çıxsa da, işğaldan azad etdiyi bölgələri öz iqtisadiyyatının gücü sayəsində yenidən qurur, bu ərazilərdə irimiqyaslı müasir infrastruktur layihələri icra edir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Böyük Qayıdış I Dövlət Proqram Qarabağ və Şərqi Zəngəzurda bu günə qədər aparılan geniş quruculuq işlərinin məntiqi davamıdır, strateji hədəflərə çatmaq üçün, eləcə də bundan sonra həyata keçiriləcək tədbirlərin mükəmməl yol xəritəsidir və müstəqil Azərbaycan tarixinə Qarabağın yenidən qurulmasını tənzimləyir. Proqramda deyilir ki, Azərbaycan hökuməti 2027-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzurda 280 min ha ərazinin minalardan təmizlənməsini planlaşdırır. Dövlət Proqramında qeyd olunur ki, 2020-2022-ci illərdə 57,6 min ha ərazi minalardan təmizlənib.

Sənəddə qeyd olunan planlara əsasən, 2024-cü ildə Laçın Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. 2026-c ildə qədər Ağdam-Xankəndi qaz kəməri tikiləcək, sərhəddə keçid məntəqələri fəaliyyətə başlayacaq. 2026-cı ildək Qarabağ və Şərqi Zəngəzura 10 min 270 ailə, 2027-ci ilə qədər – 34 min 500 ailə köçürüləcək. 2027-ci ilədək burada 34,5 min mənzil və fərdi yaşayış evi inşa ediləcək. Bu vaxta qədər Qarabağ və Şərqi Zəngəzurda hərbi infrastruktur möhkəmləndiriləcək, burada həmçinin enerji, nəqliyyat, idman, sosial və digər infrastruktur inşa olunacaq. 2026-cı ilə qədər burada 197 məktəbəqədər və ümumi təhsil müəssisəsi tikiləcək və bərpa ediləcək, 2027-ci ilədək isə regionda ali məktəbin bir filialı fəaliyyətə başlayaq, DOST mərkəzlərinin 7 filialı açılacaq. Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar.

**_RƏFİQƏ KAMALQIZI_**

# Cıdır düzündən "Xarıbülbül"ün sədası






*İdeoloji, ictimai-siyasi tədbirlərin artıq məkanına çevrilən, Türk dünyasının mədəniyyət paytaxtı Şuşamız yenidən bayram libasını geyindi. Sanki bütün al-əlvan rəngli libaslar onun üçün seçilib. Fəsillərin hər birində özünəməxsus gözəlliyə qərq olan Şuşamız baharın göz oxşayan ətirli çiçəklərinin ahəngində musiqili dünyası ilə yenidən dünyanın müxtəlif yerlərindən qonağı olan insanlara isti nəfəsli qucağını açdı.*

Toy-büsatlı Qarabağımızın incisi "Xarıbülbül"ün sədası ilə dağları, daşları aşaraq yenidən xoş ovqatını dünyaya yaydı. Bildiyimiz kimi, Şuşa şəhəri 2023-cü ildə həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Budəfəki "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında da TÜRKSOY-a daxil olan ölkələr, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivləri iştirak ediblər. May ayının 9-11-də keçirilən tədbirdə Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumu (Qaqauz Yeri), Özbəkistan, eləcə də Özbəkistanın Qaraqalpaqıstan Muxtar Respublikası, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti, Türkiyə, Türkmənistan təmsil olundular. Xoş əhvali-ruhiyyəli bu musiqi bayramı dünyanın nəzər nöqtəsində olur. Müharibəni qalibiyyətlə başa vuran bir xalqın beynəlxalq festivalları da möhtəşəm olur. Uzun illərdən sonra yenidən Şuşada, Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının keçirilməsi bir daha dünyaya göstərir ki, işğaldan azad olunan torpaqlarımız əzəli sakinlərini qoynuna alanda belə əzəmətli, möhtəşəm olur. Bu xalqın övladları kimi, onun gülü-çiçəyi də, atları da vəfalıdır. Artıq neçə ildir ki, Xarıbülbülümüzün ətri dünyaya öz ətrində yayılır. Bu qoxu ondan duyulan VƏTƏN qoxusudur. Şuşamızın qoxusudur. Bu ətri duya biləcək insanlar Vətən anlayışının nə demək olduğunu anlayanlardır. Hər bir azərbaycanlının qüruruna çevrilən "Xarıbülbül" Beynəlxalq musiqi festivalı! Musiqi beşiyi, musiqi məbədi olan Şuşada belə bir tədbirin keçirilməsi hər birimizin müqəddəs arzusu, istəyi idi ki, bu gerçəkliyə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əks-təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik. Biz bütün bu illər ərzində bir amalla yaşamışıq - torpaqları azad edək, ədaləti bərpa edək, milli ləyaqətimizi qoruyaq və buna nail olduq".Məlumdur ki, "Xarıbülbül" Beynəlxalq Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. 1989-cu ilin əvvəlində festivala hazırlıq başlamışdır. Festival eyni ilin may ayında, Şuşa Xarıbülbülündə çiçəklənmə dövründə keçirilmişdir. 1989-cu ilin festivalında yerli ifaçılardan əlavə Qırğızıstan SSR, Qazaxıstan SSR, Başqırdıstan SSR, Litva SSR və Belarus SSR-dən olan musiqi qrupları da iştirak edirdi. Ümumilikdə festivalda 100-ə yaxın insan iştirak edib. Konsertlər Cıdır düzü meydançasında tikilmiş 7 məkanda keçirilmişdir. Festival 12–15 yaşlarında "Qarabağ şikəstəsi" muğamını ifa edən gənc xanəndələrin ifası ilə açılmışdı. Festivalın ilk günü Qarabağ atlarında da yarışlar olmuşdu. İlk festivalın tamaşaçıları əsasən, Şuşanin sakinləri idilər.

## "NATƏVAN" OPERASI ŞUŞADA İLK DƏFƏ

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidən "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı start götürdü. Şuşanın qoynunda ifa olunan milli musiqimizin sədalarının Şuşa dağlarına yayılması əlbəttə ki, böyük bir sevgimizin izharıdır. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində start götürən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının mayın 10-da Cıdır düzündə qala-konserti keçirildi. Qala-konsertdə festivalda iştirak edən ölkələrin incəsənət ustalarının maraqlı çıxışı oldu. Konsert çərçivəsində "Xarıbülbül" kompozisiyası, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə və Türkmənistan incəsənət ustalarının təqdimatında "Söz meydanı" vokal-instrumental kompozisiya, "Türk dünyası virtuozları" ansamblının ifasında "Çahargah bəhsi", "Əfsanə Turan", "Xalq xəzinəsi" kompozisiyaları və iştirakçı ölkələrin ifaları, rəqs qruplarının digər rəngarəng çıxışları təqdim edildi. Qala-konsertin bütün iştirakçıların ifasında "Odlar yurdu Azərbaycan" kompozisiyası ilə başa çatması Azərbaycana olan sevginin tərənnümü idi. Şuşada ilk dəfə "Natəvan" operasının təqdimi festivala xüsusi rəng qatıb. Cıdır düzündə Vasif Adıgözəlovun "Natəvan" operasının təqdiminin böyük anlamı var. Qarabağ xanının qızı, Azərbaycan şairi Xurşidbanu Natəvanın həyat və yaradıcılığına, o dövrdə Qarabağda baş verən ictimai-siyasi hadisələrə həsr olunan opera Şuşada ilk dəfə nümayiş olundu. Opera ilk dəfə Vasif Adıgözəlovun doğulduğu şəhərdə səsləndi. Bakıda dəfələrlə bu opera səsləndirilsə də, Şuşada opera başqa bir ovqat yaratmış oldu.

## ƏSL MUSİQİ BAYRAMI

Festival çərçivəsində Xan qızı Natəvanın evinin həyətində Şuşa Dövlət Musiqili Dram Teatrının hazırladığı "Dəli Domrul" tamaşasının premyerasının keçirilməsi unudulmaz anlar yaşadıb. Tamaşa Altay Məmmədovun "Kitabi–Dədə Qorqud" dastanının "Duxa Qoca oğlu Dəli Domrulun boyu" əsasında qələmə aldığı eyniadlı pyesi əsasında meydan üslubunda səhnələşdirilib. Festival günlərində müxtəlif məkanlarda "Bayraq", "Qəhrəmanlıq", "Qarabağ məclisi", "Poeziya", "Dədə Qorqud", "Dərvişlər", "Molla Nəsrəddin" mövzularında guşələrin yaradılması da maraqla qarşılanıb. Cıdır düzü, Üzeyir Hacıbəylinin heykəlinin qarşısı, Bülbülün ev-muzeyi və Şuşanın digər məkanlarında keçirilən tədbirlər çərçivəsində müxtəlif konsert proqramları, sərgi və filmin nümayişi festivala rəngarənglik əlavə edib. Əsl musiqi bayramına çevrilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının iştirakçılarının Şuşadakı Heydər Əliyev Fondu tərəfindən bərpa edildikdən sonra açılışı olan Yaradıcılıq Mərkəzinin ekspozisiya salonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanışlığı xüsusilə yaddaqalan olub. Sərgidə Ulu Öndər Heydər Əliyevin ardıcıl, məqsədyönlü siyasəti nəticəsində Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətindəki xidmətlərini əks etdirən unikal fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunub. Həmçinin sərgidə Ümummilli Liderin vaxtı ilə Qarabağa səfərləri, burada keçirdiyi görüşlər, müxtəlif tədbirlərə aid fotolar da yer alıb.



## MÜQƏDDƏS ŞƏHƏRİMİZ YENİDƏN DİRÇƏLİR

Bu gün Şuşaya gələn qonaqların hər birinə aydın oldu ki, Şuşa yeni bir dövrünə qədəm qoyub. Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Şuşada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, bu müqəddəs şəhər yenidən dirçəlir və yeni bir inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub.Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəyərlərinə milli-mənəvi islami dəyərərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir". Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşub. Toy-büsatlı Şuşamızda yenidən "Xarı Bülbül" Beynəlxalq Musiqi Festivalı keçirildi. Tarixi və yaddaqalan anlarla zəngin olan olan festival dünyaya yenidən Şuşada, Cıdır düzündə yaşanılan anları təqdim etdi. Buradan süzülüb gələn musiqinin sədasını el-el, oba-oba Azərbaycanı sevənlərə çatdırdı.



**Zümrüd BAYRAMOVA**

# Türkiyə kritik seçki ilə üz-üzə!

***Bu bazar Türkiyədə seçki vaxtıdır. Demokratiya vaxtıdır. Hər kəs sandıq başına getməli, səsini ölkəsinin gələcəyinə, Türkiyənin növbəti 100 ilinin, yeni əsrinin uğuru üçün hüququndan istifadə etməlidir. 13 may tarixi Türkiyədə sükut günüdür. Təbliğat-təşviqat prosesinə son qoyulan bu gün-sabah keçiriləcək seçimdən əvvəl yaşanan ən gərgin, ən həyəcanlı 24 saatdır. Xaricdə səsvermə bitib. 3 milyon Türkiyə vətəndaşı səsini namizədlərdən birinə verib. Amma kimə, bu, məlum deyil. Ehtimal indiki Prezident Rəcəb Tayyib Ərdoğanın qalibiyyətini göstərir. Bazar günü də belə olacaq, deyə bilərik.***



Seçkilər, təhdidlər və səsvermə...

Keçən həftə Vanda PKK tərəfdarları seçkilərə təzyiq etməyə başlayıb. Hədə-qorxu ilə səsvermə azadlığının qarşısını almağa çalışan bölücü terror təşkilatının militanlarına cavab da özünü çox gözlətməyib. Prezident Rəcəb Tayyib Ərdoğan "Qardaşlarım, dövlətinizə güvənin, bizə etibar edin. Sizin dincliyinizə, hətta namusunuza tamah edən terror təşkilatı bir daha saçınıza dəyməyəcək", - deyə zaman-zaman bildirdiyi bu ifadələr seçicilərdə böyük inam yaradır. Ərdoğan çıxışlarında açıq şəkildə "Mənim kürd qardaşımı heç kim təhdid edə bilməyəcək" deyərək lazımlı mesajı verir. Seçki dönəmlərində iradə azadlığının qarşısını almaq üçün müxtəlif təhdidlər, hiylələr olur. Amma xalq seçki qutusuna gedib bu təhdidlərə lazımi cavabı verir.

Təhdidlərə yox, təxribatlara yox, kaset müzakirələrinə yox, xarici müdaxilələrə yox! Hər kəs səsini sandıq başında Türkiyə üçün istifadə etməlidir.





### Koalisiyalar Türkiyəyə nə verir?

Koalisiya hökumətləri sərtdir, ən kiçik fikir ayrılığı olarsa, dərhal "seçkilərə gedək" müzakirələri başlayır. Artıq koalisiya və nazirlik müzakirələri başlayıb. Çoxpartiyalı koalisiya olarsa, həmişə böhran olacaq. Türkiyə bunu keçmişdə dəfələrlə yaşayıb. Həmin dönəmlərdə Türkiyədə tez-tez seçkilər keçirilirdi. "Bu nazirlik bu nazirliyin ekvivalentidir" ritorikasının yeni böhranlara səbəb olduğu görünür. Kiçik partiyalar nazirlik alacaq, ya yox? Həmçinin 7 vitse-prezidenti də unutmaq olmaz. Düşünmək lazımdır ki, Türkiyə bunlarla irəli gedəcək, ya yox.





### Suriya görüşlərinin təsirləri

Moskvada xarici işlər nazirlərinin iştirak etdiyi dördtərəfli Suriya sammiti çox əhəmiyyətlidir. Bunun həm bölgəyə, həm də terrorla mübarizəyə müsbət təsiri olacaq. Region iqtisadiyyatı hərəkətə keçəcək. Qayıdış miqrasiyası sürətlənəcək. Bunlar regionda sülh və sabitlik gətirəcək. Suriyanın Tel-Abyad şəhərində terror təmizləndi və geri dönüşlər başladı. Tel Abyad Türkiyənin Suriyada və bölgədə nə istədiyini göstərmək üçün həm nümunə, həm də modeldir. Suriyada çoxlu ölkələrin marağı və özü var. Bu ölkələrin Türkiyə kimi davranması lazımdır. İndi növbə Suriya danışıqlarında liderlərindir.

### 4 ildə 666 adda məhsul milliləşdirilib

Müdafiə sənayesində yeniləşmə və milliləşmə 80 faizə yaxınlaşır. Bu yaxınlarda ASELSAN-ın baş direktoru Haluk Görgün ASELSAN-ın bu işdə önəmli şirkətlərdən biri olduğunu deyib. Görgün 2018-ci ildən bu yana 666 məhsulu milliləşdirərək ölkə iqtisadiyyatına böyük töhfələr verdiklərini bildirib. Keçən il 160 məhsulu milliləşdirdiklərini ifadə edən Görgün, son 4 ildə Türkiyədə 500 milyon dollardan çox vəsaitin qalmasını təmin etdiklərini vurğulayıb. Hazırda 400-ə yaxın məhsulun milliləşdirilməsi işlərinin davam etdiyini bildirən Görgün bu məhsulların 82 ölkəyə ixrac edildiyini qeyd edib. Xaricdə də bu məhsullara böyük tələbatın olduğunu ifadə edən Görgün, "Yalnız keçən il 38 fərqli ölkə ilə müqavilə imzaladıq. Xalis gəlirimiz 415 milyon dollara çatıb. Biz 50 müxtəlif məhsul ixrac edirik", deyib. ASELSAN-ın 2022-ci il dövriyyəsi 35,3 milyard lirə olub.

Terrora dəstək verənlərdən fərqli olaraq diyarbəkirli anaların dünyaya qışqırtıları bölücülüyə, separatçılığa qoyulması üçün qarşı tərəfə bir çağırışdır, onlar övladlarının necə oğurlanıb, əzildiyini dünyaya anladırlar. PKK körpə qatili, müəllim qatili, mülki qatildir. Günahsız insanları qətlə yetirən terror təşkilatı PKK-nın bu kimi hərəkətlərinə xaricdən dəstək verilir, qidalandırılır. Bu müharibə indi bitməlidir. Ölkələr PKK-ya ev sahibliyi etməyi və qidalandırmağı dayandırmalıdır. MİT hər gün böyük əməliyyatlar həyata keçirir və onları bir-bir toplayır. Mehmetçik ölkəsini qorumaq üçün gecə-gündüz növbə çəkir. Diyarbəkirli anaların fəryadını eşitməyən Qərb ölkələri terrora dəstək verməməlidirlər.

### İncənin incə məsələsi

Məhərrəm İncənin prezidentliyə namizədliyini geri götürdüyünü açıqlamasından sonra Türkiyənin siyasi dəhlizlərindən tutmuş ictimai masalara qədər hər kəs bu barədə danışır, müzakirə aparır. Həm "Xalq Alyansı", həm də "Millət Alyansı" hadisəyə münasibə bildirib. MHP-nin əməkdaşı belə bir geri çəkilmənin "Millət Alyansı"na zərər verəcəyini bildirib. "Əvvəldən Məhərrəm İncə seçkilərdə kifayət qədər çox səs qazandığı üçün onun budəfəki səsvermədə də uğur əldə edəcəyinə inanan seçicilər bunu o qədər də müsbət qarşılamayıblar. MHP-dən olan mənbə bunun "Xalq Alyansı"na zərər verməyəcəyini bildirsə də, Kılıçdaroğluna heç bir fayda verməyəcəyi fikrini çatdırıb. MHP seçicilərin ya seçkilərə getməyəcəyini, ya da bir qisminin Sinan Oğana səs verə biləcəyini şərh edib.

Ardı Səh. 7

ANALİZ

# Türkiyə kritik seçki ilə üz-üzə!

Əvvəli-Səh-6

AK Partiya cəbhəsində isə bu "çox qorxuludur" ifadəsinə rast gəlinir. Məhərrəm İncəyə qarşı dəhşətli kampaniya aparılır. Bunu Kılıçdaroğlunun ətrafında birləşənlər də etiraf edirlər. Metodun qorxulu olduğu bildirilir. Çirkin kampaniyanın arxasında FETÖ-nun dayandığı ehtimalı daha çoxdur. Halbuki, bu siyasət Türkiyədə çox təhlükəli hesab edilir. AK Partiya və MHP-dən Məhərrəm İncəyə səs verən seçicilərin yeni bir qiymətləndirmə aparacağı və bunun Kılıçdaroğluna fayda verməyəcəyi bildirilir.

CHP qaynaqları açıqlamalar barədə nə deyir? Partiyanın yüksək vəzifəli nümayəndəsi bildirib ki, belə çirkin böhtanları qəbul etmirik, bunlar siyasət zəminində edilir. "Biz qurşaqdan aşağı siyasəti qəbul etmirik və bu, təxribatdır", - deyə ittihamları rədd ediblər. Onlar geri çəkilmə qərarını "demokratiya üçün itki" hesab ediblər. CHP-dən olanlar etiraf ediblər ki, İncəyə əvvəllər təkliflər olmuşdu, amma indi bu məsələ gündəlikdə deyil. Sinan Oğan və İncəyə verilən səslərin kimlərə aid olduğunu müzakirə etmək, seleksiya aparmaq isə artıq gecdir, vaxt bitib, ümid seçicilərin "insafına" qalıb. İki gündən sonra kimin doğru, kimin isə yanlış addım atdığı bəlli olacaq.

AK Partiya İzmir millət vəkili namizədi Mehmet Əli Çələbi CNN TÜRK-ə açıqlamasında Məhərrəm İncəyə ən xoş arzularını çatdırıb: "FETÖ-nün hücumlarını lənətləyir, FETÖ-yə ümid verənləri lənətləyirəm. Bu gün FETÖ-nün PKK-dan daha ciddi bir təşkilat olduğu, hətta PKK-dan daha çox zombi təşkilat olduğu bir daha görüldü. FETÖ seçkilərə müdaxilə edir. Siz də şahidi olmusunuz ki, Akşener yenidən yaxası və ayağı ilə masaya əyləşib. İncə də namizədliyindən geri çəkildi. Ona görə də vətəndaşlarımız bunun nə qədər vacib olduğunu anladılar. Mən FETÖ planları ilə 4 il həbsdə yatmış əsgərəm. Bu xain təşkilat həbsdə olarkən təsadüfən telefonuma terror nömrələri yükləmişdi. Əgər iyulun 15-də Prezidentimiz müqavimət göstərməsəydi, bu xain təşkilat öz məqsədlərinə çatacaqdı. Prezidentimizin müqaviməti ilə həm canımız xilas oldu, həm də dövlətimiz xilas oldu. Bunu görmək lazımdır. Başda belə dedim: FETÖ-yə ümid verənləri qınayıram. FETÖ-yə ümid verən siyasilər var. Yoxsa bu yaramaz təşkilatın təkbaşına nə işlə məşğul olmasının mənası yoxdur. Bunu dəstəkləyənlər də var. FETÖ-çüləri və PKK-lıları fərman qanunları ilə yenidən dövlətə dolduracaqlarını söyləyənlər var. Sui-qəsd işlərini yenidən açacağıq deyən Babacan var. Bu strukturun güclənməsini istəyən bir siyasi tənlik var. Ona görə də vətəndaşlarımız bu siyasi bərabərliyin nə olduğunu yaxşı görür və bununla bağlı lazımi tədbirləri görəcəklər. O, siyasi seçimini buna uyğun edəcək. Yeni HDP ilə bərabər olanlar PKK ilə mübarizə apara bilməz, bu aydındır. Fərman Qanunu üzvlərini geri qaytaracağıq, deyənlər FETÖ ilə mübarizə apara bilməz. Deyirəm ki, bu, əslində 2 gün sonra keçiriləcək seçkilərdə dramatik dəyişikliyə səbəb olacaq".





### Nazir Soylu: ABŞ seçkiyə müdaxilə edir

Daxili İşlər naziri Süleyman Soylu canlı yayımında gündəmlə bağlı mühüm açıqlamalar verib. Onun açıqlamalarından başlıqları təqdim edirik: Belə mühüm yarışda qarşılaşdığımız vəziyyət yaxşı müzakirə olunmalıdır. Bu, bütün seçimi ümumiləşdirmək üçün bir cədvəldir. Burada təhdid və şantaj görünüşü var. Kasetlər, təhdidlər, şantajlar yayılır. Burada tərtib olunmuş bir əməliyyat var. Bunun kənardan idarə olunan bir şəkildə reputasiya sui-qəsdi olaraq ortaya çıxdığı görünür. Kamal Kılıçdaroğlu Deniz Baykalın kaseti ilə CHP-nin başına gəlib. Kılıçdaroğlu o zaman "mən qətiliklə namizəd olmayacağam" demişdi. Sonra namizəd oldu.

Amerika əvvəldən bu seçkiyə müdaxilə edir. Bayden dedi ki, 2016-cı ildə çevrilişlə bunu edə bilməzdik, bu dəfə çevrilişlə yox, seçki ilə edəcəyik. İncəyə gedən səsləri alacağıq. CHP-nin aldığı səslərin əhəmiyyətli hissəsi artıq ora yönəlib. Keçmişdə bu partiyalara səs verənlərdə indi ciddi həmrəylik var. Digər səslər etiraz səsləri, qutuya getməyəcək qərarsız səslərdir. Qərarsız səslərdə isə namizədlər çərçivəsində Kılıçdaroğlunu bəyənməyənlər başqa səslərə üz tutur. Bəzi siyasətləri bəyənməyənlər qarşı tərəfə üz tutular. Soylu FETÖ-nün hələ də fəaliyyətdə olduğunu bildirib. Hadisəni törədən FETÖ və ABŞ-dır.

Türkiyədə bütün bu prosesə bağlı kiber departamentdə tədbirlər görülür. Ən çox hücuma məruz qalan, təhqir olunanlardan biri AKP mənsublarıdır. Bu əməliyyatların da mühüm hissəsi xarici mənbələrdən həyata keçirilir. Qanunsuz əməlləri Türkiyə ərazisindən edənlər dərhal tapılır və cəzaları da verilir. Türkiyənin xaricindəkilər isə bunu kənardan bilərəkdən ortaya qoyurlar ki, cinayətkarlar tapılmasın. Türkiyədə bütün namizədlər üçün təhlükəsizlik tədbirləri görülüb. Onları kiber patrullarla təmin edilir.

Kılıçdaroğlu dovşan kimi tutuldu. ABŞ-ın açıq namizədi olduğu aydındır. ABŞ Ərdoğanı ciddi şəkildə istəmir, Kılıçdaroğlunu istəyir. ABŞ PKK-PYD-yə başsağlığı verəcək, adamımızı öldürdünüz, bu, başsağlığına gedirik deməkdir. Kılıçdaroğlu da bu siyasəti ortaya qoyur. Dəmirtaş buna Aponu da əlavə edib. PKK istəyir ki, bələdiyyələr istədikləri kimi davransınlar. Bu pul Türkiyənin puludur, PKK-ya gedir və güllə kimi mehmetciyin üzərinə qayıdır. Amerika və Avropa LGBT-ni qanuniləşdirmək üçün illərdir Türkiyəyə sızmağa çalışır. Eyni şəkildə CHP də bu siyasətlə eyniləşir. Terror təşkilatında 83 terrorçu qalıb. Türkiyə demokratik prosesi ən sürətlə idarə edən ölkə olub. Şərqdə və cənub-şərqdə əmin-amanlıq var, seçkilər "Kalaşnikov"ların kölgəsi altında keçirilmir. Hazırda Türkiyənin hər kvadrat santimetrində seçki təbliğatı aparılır.

Seçki ilə sosial müqavilə imzalanır. CHP onlarla müqavilə bağlayır ki, Selo və Aponu azad edəcək və muxtariyyət elan edəcək. PKK-nı da bu müqaviləyə daxil ediblər. PKK-çılar daha çox açıqlama verirlər. Türkiyə ilk dəfə terror təşkilatına səs verilən seçkilərə gedir.

Amerika istədiyi fitnəni yaratmağa çalışdı. Bu seçki Qərbin Türkiyədən silinməsi deməkdir. Ərdoğanın gördüyü ən mühüm məsələ Şərqlə Qərbi birləşdirməkdir. Türkiyə fərqli bir xəttə gedir. Bundan əvvəlki 41 ildə hökumətlərin orta müddəti 460 gün idi. Bu gün isə...

Kassetlə qorxuya düşən Məhərrəm İncənin bildiyi 2 detal nə idi? Kılıçdaroğlu-FETÖ əməkdaşlığı və VARAN-2

Mahmut Övür adlı köşə yazarı məqaləsində montaj lentləri və təhdidlərlə qorxudulan Məhərrəm İncənin geri çəkilməsi ilə bağlı təəccüblü təsbitləri və yaxın siyasi keçmişdəki oxşar əməliyyatlardan əhəmiyyətli detalları çatdırıb. "Baykal əməliyyatında olduğu kimi olacaq" deyən Övür Məhərrəm İncənin kaset təhdidi ilə geri addım atmasının arxasında gördüyü iki faktın da təsirli olduğunu və CHP-dəki nifrət kütləsinin bunu iki gün yarım sonra görəcəyini bildirib...

Hansı tərəfdən baxsan, tam siyasi qalmaqaldır. Məhərrəm İncəni çəkmək üçün CHP və FETÖ-nün birlikdə etmədiyi rüsvayçılıq qalmayıb. Bu, onun saxta qəbzlər, ciplər, itkin ayaqları, İsrail porno saytından fotoşəkillər və görüntülər adlandırdığı şeylərlə reputasiyaya tam sui-qəsd idi.

Xatırladaq ki, 2010-cu ilin mayında CHP sədri Deniz Baykala qarşı da analoji kaset planı təşkil edilmişdi. Kılıçdaroğlu da o kasetlə CHP-nin başçılığına gəldi və bir-iki nəfərdən başqa heç kim səsini çıxarmadı. Daha maraqlısı odur ki, Baykal geri çəkilib istefa verərkən Pensilvaniyaya salam göndərdi. Lakin bu çirkin əməliyyatın arxasında Pensilvaniya dayanırdı və İsveçdə yerləşən İpək Yolu İnstitutu 2008-ci ildə hesabatında bu işarəni vermişdi. Bu institut bu günlərdə prezident Ərdoğana düşmən münasibət bəsləyən Amerikanın aparıcı beyin mərkəzi olan "Foreign Policy" ilə sıx əməkdaşlıq edən bir qurumdur.

Bəli, 14 mayda seçkilərdir, 15 mayda isə çox mətləbə aydınlıq gətiriləcək. Türkiyəmi, Qərb-PKK birliyi qalib gələcək? Bunu zaman və Türkiyə vətəndaşları təyin edəcək.

**V.VƏLİYEV**

# Əfvdən sonrakı həyat necə olacaq?



## İkinci şans verilən keçmiş məhbusların adaptasiya problemi yarana bilər

***Bir neçə gün öncə - mayın 8-də Azərbaycan Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, 801 məhkum əfv olundu, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edildi. Bu Sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır.***



### "Ciddi formada adaptasiya problemi yaşayırlar"

Əksəriyyət əfv ilə azadlığa çıxanların bir çoxunun islah və cərimə səbəbindən məhkum olunduğu üçün cəmiyyətə adaptasiyaları barədə çox böyük problemlər yaşamayacağını düşünür. Bəzi hüquqşünaslar isə həbsxanaların islahedici xüsusiyyətinin olmadığını bildirərək azadlığa çıxanların təkrar cinayət işlədiyini və bu səbəbdən məsuliyyətə cəlb olunaraq həbsxanaya qaytarıldığını iddia edirlər.

Psixiatr Araz Həsəovun fikrincə, uzun müddət həbsxanada qalan insanların ünsiyyət problemi ola bilər. Həmin şəxslər əfv edilərkən onların yenidən cinayət törədib-törətməyəcəyinə nəzarət etmək və bunun üçün psixoloji-sosial dəstək vermək lazım olduğunu düşünən psixiatr bu məsələdə ailələrin və yaxın çevrənin üzərində böyük məsuliyyət düşdüyünü deyir:

"Uzun müddət həbsdə qalanlarda empatiya azala bilər, yaşadıqları çətinlik səbəbindən inam, etibar, şəfqət və mərhəmət hisslərini itirə bilərlər. Ünsiyyətə qapalı olurlar, hətta şən, danışıb gülməyi sevən bir insanın da xarakterini dəyişə bilir məhbusluq həyatı. Bu səbəbdən qohumların keçmişi xatırladaq hər hansı sözü, hərəkəti onlarda aqressiya yarada, özünəqapalı həyata sövq edə bilər. Lakin aqressiyasına yenilib yenidən cinayət törədənlər və təkrara cəzaçəkmə müəssisələrinə göndərilənlər də olur".

Həbsxanadan çıxan insanların cəmiyyətə inteqrasiyasının təmin edilməsində bu sahədə işləyən QHT-lərin üzərinə məsuliyyət düşür: "Dünya təcrübəsində də var ki, cəza müəssisələrindən çıxan insanları həftədə, ayda bir dəfə də olsa bir araya toplayıb sosiallaşmasına kömək edirlər. Ölkəmizdə belə bir reabilitasiya sistemi olmadığından keçmiş məhbuslar adaptasiya, uyğunluq problemləri yaşayır".

### Ən böyük problemləri iş olur

Uzun müddət həbsdə olanların bəzilərinin həbsdən çıxandan sonra getməyə evi, görüşməyə qohumu yoxdur. Onlar yaşamaq üçün iş tapmalı, pul qazanmalıdırlar, lakin indi bu, çox çətindir. Bəxt üzünə gülüb iş tapanlar isə əvvəllər məhkum həyatı yaşadığı bilindikdən sonra iş yerində stiqmaya məruz qala bilirlər. İş tapa bilənlər keçmiş məhkumlar da həmkarlarının reaksiyasına dözə bilmir və işdən çıxırlar. İşçilər keçmiş məhkumlarla eyni yerdə işləmək, eyni mühitdə olmaq istəmir, keçmiş məhkumlar isə "cəzamı çəkmişəm" deyərək haqlı olaraq ikinci şans istəyirlər. Bəzən o şans onlara verilir, bir çox hallarda isə yox.

"Həbsdən çıxanda dərhal işləyə bilmədim. Təhsilim var, əvvəlcə özəl bir şirkətdə mühasib işləmişəm, amma orada mənim məhkumluğumu bilirlər deyə getmədim, qınayan, söz atan çox olur. Həyatdır, başıma iş gəldi, mən də istəməzdim belə olsun, adi mübahisə böyüdü, dava oldu, bıçaqladım birini. Ölmədi yaxşı ki, amma mənim də bütün həyatım məhv oldu. İllərlə həyat yoldaşım həbsxanaya gəldi-getdi, uşaqlarım mənsiz böyüdü. İki ildir iş axtarıram, gündəlik fəhləlikdən başqa heç nə tapmıram. Təsəvvür edin, yaxşı iş şəraitim, qazancım, hörmətim vardı, indi isə tikintilərdə fəhləlik işini belə güclə tapıram".

Bunlar keçmiş məhkum A.Məhəmmədəliyevin dediklərindəndir. O yaxın çevrəsindən narazılıq etmir: "Ailəm, qohumlarım bütün imkanları ilə mənə dəstək oldular, amma ata-anama, həyat yoldaşıma qarşı vicdan əzabım var. Onlara bunu yaşatdığım üçün utanıram. Bir anlıq qəzəb ömrümü məhv etdi".

### Hüquqşünas: "Təkrar cəza müəssisəsinə dönənlər də olur"

Bəlkə də xəbər saytlarında, qəzetlərdə oxucunun da diqqətini çəkib. Bəzən həbsdən çıxıb yenidən həbsə qayıdanlar barədə yazırlar. "Həbsdən çıxdı, keçmiş arvadını öldürdü...", "həbsdən çıxan gün həbsə qayıtdı" kimi xəbərlər də rastımıza çıxır. Maraqlıdır, niyə bu insanlar azadlığa çıxdıqdan sonra yenidən cinayət törədirlər? Azadlıq onlar üçün belə dəyərsizdirmi? Ekspertlər hesab edir ki, cəzaçəkmə müəssisəsindən çıxan keçmiş məhkumların eyni cinayəti törətmə nisbəti 30 faizdir.

Vəkil Vilayət Vəliev deyir ki, iş təcrübəsində belə hallara rast gəlib: "Bəzən hüquqlarını müdafiə etdiyim şəxsin ikinci, üçüncü cinayəti törətdiyinin şahidi oluram. Yüngülləşdirici səbəblər axtarıram, cəzasının azaldılması üçün yollar axtarıram, amma bir çox hallarda bu mümkün olmur. Həbsdən çıxdığı həftə cinayət törədənlər olur. Sanki həbsə qayıtmaq üçün qəsdən edirlər. Əksər hallarda da ağırlaşdırılmış cəza alırlar".

Vəkilin sözlərinə görə, əfv vasitəsi ilə çıxanlar, adətən, təkrar cinayətə meyilli olmurlar: "Qəbul edirlər ki onlar bağışlanıbsa nümunəvi olmalıdırlar. Bağışlanmadan sonra həyatlarına bir növ nəzarət etməyə çalışırlar ki, təkrar məsuliyyətə cəlb olunmasınlar. Özlərini buna borclu hesab edirlər."

Bağışlamaq bütün dövrlərdə və bütün cəmiyyətlərdə böyüklük hesab edilir, bağışlayan müdrik, bağışlanan səhvindən dərs alan kimi xarakterizə edilir. Azad cəmiyyətlərdə günahın cəzası da olur, cəzasından nəticə çıxaranların əfvi də. Günahkarların bağışlanması məsuliyyətli işdir, bu məsuliyyəti öz üzərinə götürəcək insanlar da azdır. Dövlət rəhbərliyi bu məsuliyyəti öz üzərinə götürərək dövlətçilik tarixinin ən böyük əfv qərarı ilə 801 ailənin ümidini işıqlandırdı. Ümid edirik ki, ikinci şans verilən keçmiş məhbuslar azadlığın dəyərini bilərlər.

***Lalə Mehralı***







# Diaspor quruculuğu prioritetdir

***Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra həmvətənlərimizin xarici ölkələrə köçməsi və məskunlaşması daha çox müşahidə edilməyə başladı və 1920-ci ildən başlayaraq Türkiyəyə, Avropa ölkələrinə eləcə də Amerikaya köçənlər arasında cümhuriyyət qurucuları çoxluq təşkil edirdi, hansı ki, onlar məhz Sovet İttifaqının repressiyalarından canlarını qurtarmaq üçün köçmək məcburiyyətində qalmışdılar.***

Bununla belə, həmvətənlərimizin xarici ölkələrə köçməsi, həmin ölkələrdə məskunlaşması növbəti dəfə daha çox əsrin sonuna, müstəqilliyimiz bərpa edildiyi dövrə təsadüf etdi, amma bu dəfə xarici ölkələrə köç, həmvətənlərimizin xarici ölkələrdə məskunlaşması, həyat və fəaliyyətini həmin ölkədə davam etdirməsi, bütün dünyada miqrasiyanın sürətləndiyi vaxtda, qloballaşma dövründə, təbii olan prosesin tərkib hissəsi kimi qiymətləndirlir və əsrin əvvəlində həmvətənlərimizin köçüb getməsindən köklü surətdə fərqlənir.

Əsrin əvvəllərində köç edib xarici ölkələrdə məskunlaşanlar repressiyalardan xilas olmaq niyyəti ilə gedənlər idi və həmin dövrdə, ardınca da 70 il ərzində artıq Azərbaycan Sovet İttifaqının hakimiyyəti, güclü təsiri altında olduğundan, eləcə də həmin imperiyanın dünyada böyük güc, söz sahibi olduğundan həmvətənlərimizin təşkilatlanması mümkünsuz oldu. Müstəqilliyimiz bərpa olunduqdan sonra, qloballaşma dövründə həmvətənlərimizin dünyanın müxtəlif ölkələrində məskunlaşması isə tamamilə başqa tələbləri ortaya qoyurdu və həmvətənlərimizin təşkilatlanması artıq lazım idi. Xüsusən də, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda xaosun, hərcmərcliyin, səriştəsiz hakimiyyətin, idarəsizliyin olmasından istifadə edərək ölkəmizə, xalqımıza qarşı məkrli niyyətlərin ortaya çıxdığı bir dövrdə həmvətənlərimizin məhz təşkilatlanmasına ciddi ehtiyac duyulurdu və diaspor quruculuğu, lobbiçilik fəaliyyəti, eləcə də həmrəyliyimiz labüd idi və ən vacib məsələ sayılırdı. İstər sosial-iqtisadi böhran, istər daxili çəkişmələr, istərsə də xarici müdaxilələr, ələlxüsus işğalçı Ermənistanın fürsətdən istifadə edərək torpaqlarımıza göz dikməsi, təcavüz etməsi müstəqilliyimiz üçün təhdid hesab olunurdu və belə bir zamanda, belə bir şəraitdə həmrəyliyimizə daha çox ehtiyac duyulmağa başladı və bəlli idi ki, birliyimiz sayəsində çətinliklərin öhdəsindən gəlmək mümkündür. Bəlli idi ki, təkcə hərbi mənada deyil, eləcə də informasiya müharibəsində Ermənistanın ölkəmizə qarşı həmlələr etdiyi, dezinformasiyalarla, yalan, təhrif olunmuş məlumatlarla haqlarımızı tapdalamağa çalışdığı zaman dünya azərbaycanlılarının həmrəyliyi sayəsində bütün bunların qarşısını almaq olar. Ermənistanın, eləcə də xarici havadarlarının, erməni təəssübkeşlərinin çirkin planlarının qarşısını almaq, vəziyyəti xeyrimizə dəyişmək və haqq səsimizi dünyaya çatdırmaq üçün güclü dövlətlə yanaşı güclü lobbinin yaradılması, diaspor quruculuğu qaçılmaz idi. Bir sözlə, birliyimizin təmin olunması, çətinliklərin öhdəsindən gəlmək, məkrli düşmənin hər bir istiqamətdə hücumunu dəf etmək, zərərsizləşdirmək, vəziyyəti milli maraqlarımıza uyğun olaraq dəyişmək, uğurların, qələbələrin bünövrəsi üçün də diaspor quruculuğu, lobbiçilik ön planda idi, hansı ki, bunun da öhdəsindən layiqincə gəlindi və birliyimiz, həmrəyliyimiz sayəsində əldə etdiyimiz qələbələr, uğurlar göz önündədir.

Heç şübhəsiz ki, hər bir xalqın taleyində müstəsna rol oynayan, daha dəqiq desək, milli, eləcə də mənəvi birliyə xidmət edən, həmrəyliyi, birliyi təmin etməklə xalqını qələbələrə, işıqlı gələcəyə aparan tarixi şəxsiyyətlər yaddaşlarda əbədi yaşayırlar və bu heç də səbəbsiz deyil. Həmin tarixi şəxsiyyətlər xalqı öz ətrafında birləşdirməklə, milli ideyalar uğrunda səfərbər etməklə ən çətin vəziyyətdən çıxmaq üçün düzgün, doğru yolu göstərirlər, cəmiyyətin inkişafına böyük töhvələr verirlər və onlar heç zaman unudulmurlar. Məhz Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı, cənab Prezident İlham Əliyev öz xalqını qələbələrə, işıqlı gələcəyə aparan, cəmiyyətin inkişafına saysız-hesabsız töhfələr verən şəxsiyyətlərdir.

Ötən əsrin sonlarında öz müstəqilliyini yenicə bərpa edən, hələ möhkəmlənməyən Azərbaycana qarşı düşmən qüvvələrin baş qaldırdığı, ölkəmizi parçalamaq üçün müxtəlif istiqamətlərdə öz çirkin niyyətlərini ortaya qoyduqları bir dövrdə, vəziyyətin az qala vətəndaş müharibəsi həddinə gəlib çatdığı bir zamanda, erməni separatçıları, Qarabağ klanı öz çirkin niyyətlərini həyata keçirmək üçün münbit şəraitdən istifadə etdikləri bir məqamda xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev xilaskar lider olaraq, ilk növbədə parçalanmaların, toqquşmaların qarşısını aldı, həmrəyliyimizi, birliyimizi bərpa etməklə problemli məsələlərin köklü şəkildə həllinə nail oldu. Xalqımızın öz Liderinin ətrafında birləşməsi, birliyimiz, həmrəyliyimiz sayəsində ən çətin problemlərin öhdəsindən gəlindi və davam etməkdə olan erməni işğalının qarşısı alındı, sabitlik bərpa edildi, bugünkü qələbələrimizi təmin edəcək iqtisadi inkişaf yolunun təməli qoyuldu, cəmiyyətimizin bütün sahələr üzrə inkişafı istiqamətində əsaslı addımlar atıldı. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev məhz Ulu Öndərin ideyaları, milli birlik, həmrəylik sayəsində bütün istiqamətlərdə uğurlara imza atdı və torpaqlarımız məhz birlik, həmrəylik sayəsində işğaldan azad edildi.




Ümummilli Lider Heydər Əliyev milli birliyimizin, xalqımızın həmrəyliyinin nə dərəcə əhəmiyyətli olduğunu çox yaxşı bilir və bunu yüksək qiymətləndirirdi. Dahi rəhbər təkcə ölkə daxilində yaşayan həmvətənlərimizin deyil, ölkə hüdudlarından kənarda məskunlaşan azərbaycanlıların da birliyinə, həmrəyliyinə çalışırdı və bu istiqamətdə də öz tövhələrini verdi. Təsadüfi deyil ki, Ulu Öndər xarici ölkələrə səfərləri zamanı həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşür, söhbətlər aparır, harada yaşamasından, harada məskunlaşmasından asılı olmayaraq onların bir-birləri ilə əlaqəni kəsməsini, hətta təşkilatlanmalarını da onlara tövsiyə edirdi. Məhz dahi liderin bu tövsiyələri, göstərişləri dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən xoş qarşılandı və diaspor quruculuğuna başlanıldı, diasporumuz yaranmağa başladı. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, diaspor quruculuğu, lobbiçilik Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır və bu gün dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanması ideyasının müəllifi, Azərbaycan diasporlarının yaradıcısı və banisi elə məhz Ümummilli Lider Heydər Əliyevdir. Bu gün artıq Azərbaycan diasporlarının fəaliyyəti qənaətbəxş hesab olunur və ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyevin qayğısını da bizim xarici ölkələrdəki diasporlarımız duyurlar. Nümunə üçün qeyd edək ki, erməni lobbisi Ermənistana maddi yardımlar göndərdiyi halda, Azərbaycan dövləti diasporlarımıza, lobbilərimizə maliyyə dəstəyi göstərir və bu da onların daha sürətli inkişafını şərtləndirir. İnkişaf etmiş diaspor, lobiçilik isə ölkəmizə, xalqımıza hər zaman lazımlı hesab olunur, çünki erməni təbliğat maşını heç də dayanmayıb və onlar Azərbaycanı bütün dünyada nüfuzdan salmaq üçün var qüvvələri ilə çalışdıqları zaman, bunun qarşısının alınması istiqamətində diasporlarımızın, lobbilərimizin, ümumiyyətlə, həmrəyliyimizin rolu danılmazdır.

Azərbaycan diasporunun, lobbisinin rolunu 44 günlük müharibə dönəmində də, torpaqlarımızın işğaldan azad olunduğu vaxt da müşahidə etmiş olduq. Dünyanın bir çox ölkələrində, ələlxüsus həmin ölkələrin səfirlikləri qarşısında Azərbaycan əleyhinə aksiya keçirən erməni təşkilatlanmasının da qarşısına məhz Azərbaycan diasporu çıxdı, onlarla mübarizə apardı, onları yerindəcə susdurdular və bizim haqlı tərəf olduğumuzu bütün dünyaya bəyan etdilər. Erməni hədsizliyinin, erməni yalanlarının yerindəcə, yubanmadan qarşısının alınması və ölkəmizin ədalətli mövqeyinin, haqlı mübarizəsinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin, lobbiçiliyin, həmrəyliyin nə qədər vacib olduğunu hər birimiz müşahidə etdik, gördük. Bu baxımdan, Ali Baş Komandan, cənab prezident İlham Əliyevin diasporlarımızın fəaliyyətini yüksək qiymətləndirməsi heç də təsadüfi deyil. Ölkə rəhbərimizin, dövlətimizin diaspor quruculuğuna, lobbiçilik fəaliyyətinə hansı səbəbə görə önəm verdiyini və qayğı ilə yanaşdığını hər kəs çox yaxşı başa düşür. Eyni zamanda onu da başa düşürük ki, qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində qarşıya yeni vəzifələr qoymaqdadır və bilirik ki, hazırda diaspor anlayışının beynəlxalq münasibətlərin vacib elementinə çevrilməsi də təsadüfi deyil, qarşıya qoyulan həmin yeni vəzifələrdən irəli gəlir. Xüsusən də xalqlar arasında sürətli inteqrasiya prosesləri getdiyi zamanda diaspor təşkilatlarının beynəlxalq siyasətdə rolunu artır etiraf etməmək mümkün deyil. Çünki məhz diaspor təşkilatlarının rolunun artması onların genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirib və deməli, getdikcə diaspor quruculuğunun, lobbiçiliyin və həmrəyliyimizin daha da gücləndirilməsi öz aktuallığını qoruyur, prioritet olaraq qalır.

***İnam Hacıyev***

# Milli Məclisin Heydər Əliyevə həsr olunmuş xüsusi iclası olacaq




Milli Məclisin növbəti iclasının tarixi məlum olub. SİA-nın xəbərinə görə, bu barədə dünən parlamentin sədri Sahibə Qafarova məlumat verib. Milli Məclisin növbəti iclası mayın 16-da keçiriləcək. Bu, Ümummilli lider Heydər Əliyevə həsr olunmuş xüsusi iclas olacaq.

# Türkiyəli politoloq: "Ermənilər xaincəsinə təxribatlara davam edir"



"İrəvanda 1920-ci illərin əvvəllərində Osmanlı siyasi və hərbi liderlərinə, eləcə də dövrün Azərbaycan rəsmilərinə və hətta erməni əsilli bəzi Osmanlı vətəndaşlarına qarşı sui-qəsdlərin günahkarlarına həsr olunmuş "Nemesis abidəsi"nin açılmasını qətiyyətlə pisləyirik". Bu sözləri SİA-ya açıqlamasında türk politoloq Hakan Aktürk deyib.

Onun sözlərinə görə, bu utancverici abidənin açılması 31 diplomat və ailə üzvlərinin qətlə yetirildiyi dəhşətli terrora səbəb olan qanlı terror aktının tərənnümüdür. Əsas məqsədi açıq-aşkar Türkiyə və Azərbaycan milli ruhuna xələl gətirmək olan erməni azlığı silahlı və silahsız təxribatlarını, xaincəsinə davam etdirir. Qarabağ zəfəri ilə böyük dərs verən Azərbaycan Ermənistan tərəfinin qələbəyə kölgə salacaq hücumlarını aradan qaldırmağa davam edir".

Hakan Aktürk sözlərinə belə davam edib: "Tarixi qara ləkələr, insan rüsvayçılığı, xəyanətkar qırğınlarla dolu olan erməni azlığı ən şiddətli cavabı Türkiyə və Azərbaycan tərəfindən alacaq. Bütün rəzalətlərə zidd hərəkət edərək Azərbaycana hücum planı hazırlayan ermənilərin bu addımlarını görməzdən gələn dünya və Avropa ölkələri də bir başqa müəmmalıdır. Amma unutmasınlar ki, Türkiyə və Azərbaycan hər çətinliyin haqqından gələcək".

***Ayşən Vəli***

# Ermənistan "varlığının" son akkordları

## Paşinyanın revanş hissi onun siyasi ölüm hökmünün tezləşdirilməsi anlamını daşıyır







***Zod istiqamətində növbəti erməni təxribatı baş verdi və bu təxribatın məqsədlərinin nəyə doğru istiqamət alması da artıq məlumdur. Qalır onların daha dərindən şərh edilməsinə... Beləliklə, mayın 10-da, axşam saatlarında düşmən mövqeyindən açılan snayper atəşi ilə hərbi qulluqçumuz başından güllə yarası aldı. Xoşbəxtlikdən hərbçimiz həyatını itirmədi.***

### Moskva izi, yaxud baş verənlər heç də "təsadüf" deyil

Lakin bu olayın digər tərəfi də var. Müharibə qanunlarına görə, snayperləri xüsusi ehtiyac olmadıqda cəbhənin ön xəttinə dislokasiya etmirlər. Bu baxımdan, haqqında bəhs etdiyimiz hadisə də əsla "təsadüf" hesab oluna bilməz. Ona görədir ki, baş vermiş son hadisə bilavasitə əvvəlcədən hazırlanmış, hətta siyasi yöndən də tərtib edilmiş aşkar erməni təxribatıdır. Misal üçün, Ermənistanın baş naziri Nikol Paşinyan olay gününə qədər güc strukturlarını toplamışdı. Üstəlik, Moskvadan geri dönən kimi. Burada ehtimal var ki, o, Kremlin "dobrosunu" da alıb. Çünki bundan əvvəlki Vaşinqton görüşü Moskvada qıcıq yaratmışdı. Açığı, üzərinə götürdüyü öhdəliklərini yerinə yetirə bilməyən, yaxud bunu istəməyən Rusiyadan bənzər addımları gözləmək kifayət qədər mümkündür.

### Paşinyanın parlament dinləmələrində baş verənlərlə bağlı hər 10-15 dəqiqədən bir bəyanatlar verməsi isə bir reallığı isbatlayır...

Daha bir nüans: düşmənin təxribata informasiya yönündən hazırlığı. Belə ki, Ermənistanın müdafiə nazirliyi XIN-i ilə paralel şəkildə hər 15 dəqiqədən-bir press-relizlərlə çıxış edirdi. Əlavə olaraq, bu prosesdə Paşinyanın özü də "Azərbaycanın aqressiyası" tipində bəyanatlar verirdi. İndi isə diqqət! Hərbçimizə snayper atəşinin açılması məhz (!) cümə axşamına keçən gün - ölkə parlamentinin ənənəvi parlament dinləmələrinə "təsadüf" etdi. Paşinyan isə həmin günlərdə özünün "natiqlik məharətini" sınayır, demaqogiya ilə məşğul olur. Erməni baş nazirin həmin dinləmələrdə baş verənlərlə bağlı hər 10-15 dəqiqədən bir bəyanatlar verməsi isə bir reallığı isbatlayır: bu, əvvəlcədən və hərtərəfli hazırlanmış anti-Azərbaycan təxribatıdır! Yeri gəlmişkən, Paşinyan öz çıxışında dərhal bəyan etdi ki, qarşıdan gələn Brüssel görüşündə sülh razılaşmasının əldə edilməsi çox azdır, hətta mümkün deyil. O bildirdi ki, guya Azərbaycan bu vasitə ilə Soçidə, Praqada realizə olunmuş fundamental razılaşmaları şübhə altında qoyur və s. Əlbəttə ki, erməni baş nazirinin həqiqətən də psixiki çatışmazlığı özünü növbəti dəfə sübuta yetirir.

### O, çox gözəl bilir ki, Belçikada nala-mıxa döyəcləyə bilməyəcək

Lakin əldə etdiyimiz daha bir informasiyaya görə, Paşinyan Brüssel görüşündə bir suala dəqiq və qeyd-şərtsiz cavab verməlidir və bu cavab isə bilavasitə Vaşinqton raundundakı məntiqə söykənir - o Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyırmı? Biz onu da unutmamalıyıq ki, Paşinyan Azərbaycanın öz suveren ərazisində, Ermənistanla sərhəddə, Həkəri çayının üzərində - Laçında sərhəd keçid məntəqəsinin yerləşdirilməsini də öz sərsəm düşüncəsi ilə "qeyri-qanuni" adlandırmışdı. O, çox gözəl bilir ki, Belçikada nala-mıxa döyəcləyə bilməyəcək. Ermənistan böyük səhvə yol verməklə Bakı ilə qarşıdurmaya gedir. Öz təxribatına görə isə onqat cavabını alır.

### Qərbi Azərbaycan faktorunun realizəsi istiqamətində rəsmi Bakının verdiyi qərarları, artıq gerçəkliyə çevriləcək

Görünən isə budur ki, Paşinyan vaxtı uzatmaqla revanş barədə düşünür. Bunu da aşkara çıxarmaq heç də çətin deyil. Məsələn, məlumdur ki, İran Rusiyaya verdiyi uğursuz zərbə dronlarını Ermənistana da verib. Üstəlik, Ermənistan Fransadan və Hindistandan yeni silahlar almaq ərəfəsindədir. Yəni, düşmən militarizasiyalaşır və bunun məqsədi də kifayət qədər bəllidir. Son olaraq isə biz burada Prezident İlham Əliyevin Ermənistana verdiyi sərt xəbərdarlıqlarını bir daha xatırlamalı və Paşinyanın Azərbaycanla çiling-ağac oynamasının onun üçün, həmçinin, Ermənistan üçün nə qədər baha başa gecələyini təsəvvürünüzə gətirməliyik. Hər halda, tarixi Qərbi Azərbaycan faktorunun realizəsi istiqamətində rəsmi Bakının verdiyi qərarları artıq gerçəkliyə çevriləcək. Paşinyanın revanş hissi onun siyasi ölüm hökmünün tezləşdirilməsi anlamını daşıyır.

**Afət TAHİRQIZI**

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

YAP Cəbrayıl rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yasamal rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.



Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

# Yenidən qurulan və bərpa olunan ziyarətgahlar: SAATLI MƏSCİDİ



*Dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyədə olduğunu göstərir. Dünyəvi, müasir, dünyaya açıq olan Azərbaycan milli dəyərlərə, adət-ənənələrinə də böyük hörmətlə yanaşan bir ölkədir. Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır.*







Çoxəsrlik tarixə malik olan abidələrimizə, dini ziyarətgahlarımıza, maddi-mədəniyyət abidələrimizə yeni həyat verilir. Bu gün ölkəmizdə 2200-dən artıq məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyətdədir. Azərbaycanda dini abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Müstəqillik dövründə yüzlərlə dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır. Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi önəm verib. Belə ki, Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verilib. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası və təmiri, eləcə də yenidən tikilməsi Prezident İlham Əliyev tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirildi. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Bakıdakı Heydər Məscidi, Gəncədə ”İmamzadə” kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır.

## ”DİNLƏRARASI, MİLLƏTLƏRARASI MÜNASİBƏTLƏR ƏN YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN OLUNUR”

Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun layihələri sırasında ”Azərbaycan - tolerantlığın ünvanı” layihəsi çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib. Cənab İlham Əliyevin bildirdiyi kimi, bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər: ”Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur”.

Dini ocaqlarımız bu gün işğaldan azad olunmuş torpaqlarımızda da bərpa təmir olunur. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin Şuşaya səfəri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışı məhz dini abidələrimizə ayrılan diqqətdir. Şuşadakı Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub.

Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. ”PAŞA Holding”in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın ”Wehdorn Architekten” şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Həmçinin zədələnmiş ön sütunun gücləndirilməsi işləri həyata keçirilib, məscidin döşəməsi bərpa edilib.

## QARABAĞDA XALQIN MİLLİ SƏRVƏTİ OLAN DİNİ ABİDƏLƏRİMİZƏ, MƏSCİDLƏRİMİZƏ YENİ HƏYAT VERİLİR

Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayarkən bu barədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva rəsmi ”Instagram” səhifəsindəki paylaşımında belə bildirmişdir: ” Əlbəttə, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik. Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır. Amma əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik...

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir”.

Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, eləcə də Saatlı məscidinin açılışı dini abidələrimizə Heydər Əliyev Fondu tərəfindən ayrılan diqqətdir. Dini ocaqlara olan münasibət Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Uşaqlar cinsi münasibət haqqında nə zaman məlumatlandırılmalıdır?



***Amerikada yeniyetmələrin niyə belə gənc yaşda cinsəllik yaşamaq istəməsi ilə bağlı bəzi araşdırmalar aparılıb. 3 araşdırmanın nəticələrinə görə, cinsi aktiv gənclərin ətraf mühit amillərindən, qarşı tərəfin yaşından, ailənin ya əhəmiyyət vermədiyi, ya da xüsusilə, oğlanlara dəstək verdiyi qənaətinə gəlinib.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Amerika İctimai Sağlamlıq Assosiasiyasının iclasında Kentukki Universitetinin tədqiqatçıları Kentukki və Ohayo ştatlarının 17 məktəbindən 9-11-ci siniflər arasında olan 13-19 yaş arası 950 yeniyetmənin tədqiqatını təqdim ediblər. Nəticədə cinsi əlaqədə olan gənclərin digər dostlarının əslində cinsi əlaqədə olmasalar da cinsi əlaqədə olduqlarını düşündüyü üzə çıxıb.

Kentukki məktəbinin sağlamlıq bölməsində Dosent Katharine Atvooda görə, o yaş qrupundakı gənclər dostları arasında bu vəziyyəti şişirdirlər və hətta cinsi əlaqədə olmayan dostları belə, bu təcrübəni yaşamış kimi davranaraq bir-birlərinə təsir edə bilirlər".

Vermont Universitetinin psixologiya professoru Harold Leitenberqin dediyinə görə, gənc qızlar ilk cinsi təcrübəni 12-13 yaşlarında görəndə, adətən, özlərindən 5-6 yaş böyük partnyor seçirlər.

Xüsusilə qızlar üçün erkən cinsi təcrübə bəzi davranış problemlərini də gətirə bilər. İntihar meyilləri, spirt istifadəsi, narkotik istifadəsi, məktəbdən yayınma və hamiləlik ən çox rast gəlinən problemlərdir.

Türkiyədə xüsusilə son 6-7 ildə yetkinlik yaşı 9-a, seksuallıq yaşı isə 14-ə enib. Əvvəlki illərdə yetkinlik yaşı 12-14, seksuallıq yaşı isə 20-21 yaş idi. Avropada aparılan bir araşdırmada, erkən yetkinlik dövrünə girən uşaqların erkən cinsi təcrübələr yaşadığı ortaya çıxdı.

### Yetkinlik yaşının azalmasının səbəbləri:

**1**. Proteinli qidaların istehlakının artırılması,

**2.** Kimyəvi və hormonlu qidalar

**3.** Sosial-iqtisadi sahədə inkişafı zənginləşmə kimi sıralamaq olar.

Ölkəmizdə hətta 100 faiz ailələr yeniyetmə övladlarının cinsi təcrübəyə malik olmasını üstün tutmurlar. Ona görə də ailələr övladlarını yetkinlik yaşına çatan andan etibarən cinsi əlaqə və o yaşda cinsi təcrübənin mənfi nəticələri barədə xəbərdar etməlidirlər.

2002-ci ildə Minnesota Universitetində nəşr olunan bir araşdırma, 13-19 yaşlı gənclərin anaları uşaqlarının həyatına qarışdığı və uşaqları ilə cinsi məlumatları paylaşdığı zaman yeniyetməlik dövründə cinsi təcrübəyə marağın itdiyi aşkar edib.

### Bu araşdırmaya görə:

**1.** Yeniyetmələr analarının onların cinsi əlaqədə olmasını əsla istəmədiyini bilirlərsə, çox vaxt cinsi əlaqədən uzaq dururlar.

**2.** Ana ilə uşaq arasındakı bağın gücü sözdən çox daha təsirlidir.

**3.** Analar uşaqlarına qorunma ilə bağlı nəsihətlər verirlərsə, yeniyetmələr bunu ananın cinsi əlaqəni bəyənməməsi kimi görmürlər.

**4.** Dünyada "Övladımla münasibətimiz çox yaxşıdır" deyən anaların 14-15 yaşlı uşaqlarına baxdığımızda bu uşaqların cinsi təcrübələri olduğu, ancaq analarının bundan xəbərsiz olduğu görülüb.

Analar qızları ilə güclü bağlar saxladıqda, ana-qız rəfiqə olduqda, onların erkən yaşda cinsi təcrübə yaşamalarına mane ola bilərlər.



Oğlanlar da atalarından daha çox təsirlənirlər və bu təcrübəni yaşamadan ataları ilə danışa bilərlər və ya ataları uşaqları ilə danışa bilər. Çünki kişi cinsindən olan yeniyetmələrin eyni yaş qrupundan olan dostların təsiri altına düşməsi çox yayılıb. Ona görə də atalar bu vəziyyəti bəyənmədiklərini və o yaşda cinsi əlaqənin mənfi tərəflərini oğluna izah etməlidir. Uşaqları o yaşda çox azad buraxıb onların da fərd olduqlarını, özbaşına düşünüb qərar verə biləcəklərini düşünmək çox yanlışdır. Onlar fərddirlər, lakin düzgün düşünmək və düzgün qərar vermək üçün kifayət qədər yaşlı və təcrübəli deyillər.

ABŞ-da aparılan başqa bir araşdırmada, yeniyetmələrin üçdə ikisi cinsi təcrübələrindən peşman olduqlarını söylədilər. Xüsusilə yeniyetməlik dövründə bu uşaqların valideynlərinin rəhbərliyinə çox ehtiyacı olur. Özünə güvənən, valideynləri tərəfindən sevildiyini və ailədi ilə yaxşı bir əlaqəyə malik olduğunu düşünən yeniyetmə qızlar ilk cinsi təcrübəni böyük yaşlarda edirlər.

Əsasən valideynləri ilə yaxşı ünsiyyət quran yeniyetmələr cinsi təcrübəyə ehtiyac duymurlar. Çünki onlar başqa məşğuliyyətlər axtarmaq və başqaları tərəfindən qəbul olunmaq istəmirlər. Bu halda xüsusən də qadın yeniyetmələr kişidən diqqət istəməzlər.

"The Journal of Adolescent Sex"də dərc olunan məqalədə Doktor Moraski deyir: "Yeniyetmələr həmişə valideynlərindən asılı olmayan bir həyat sürməli olduqlarını, etdikləri hər şeydən xəbərdar olmalarına ehtiyac olmadığını, böyüyüb və təkbaşına qərar qəbul edəcəklərini düşünürlər. Onlar özlərini dərk edəndə ailədən üz döndərərək həmyaşıdları ilə məlumat mübadiləsi aparmaq istəyirlər. Amma problem dostlarından aldıqları məlumatların düzgün olmamasıdır. Ona görə də elə düşünməyin ki, böyüdülər və azad buraxmalıyıq. Onlarla danışın, məsləhət verin, bağlarınızı möhkəm tutun".

"Journal of Milbank Quarterly"də dərc olunan məqalədə valideynləri siqaret çəkən yeniyetmələrdə siqaret və spirtlə tanış olma yaşı azalır və ilk cinsi təcrübələrini mühit tapdıqları zaman yaşayırlar.

Oğlunuzun və ya qızınızın düşündüyünüzdən daha çox seksuallıq yaşadığına dair əlamətlər var. Uzun müddətli tədqiqatlar göstərdi ki, siqaret, alkoqol və digər narkotik istifadəsi cinsi təcrübə ilə yanaşı gedə bilər və yeniyetmələr bunu sınayırlar.

Ardı Səh. 13

# Uşaqlar cinsi münasibət haqqında nə zaman məlumatlandırılmalıdır?



Əvvəli-Səh-12

**Övladlarınızı 10 yaşından etibarən aşağıda göstərilən qaydada öyrətmək məsləhət görülür:**

- Yeniyetmənizi evdə tək qoymayın. Onunla evdə əyləncəli şəkildə vaxt keçirin.

- Uşağınızın və dostlarının məsləhət vermədən nə danışdıqlarına qulaq asın ki, onun təhlükələrdən qoruya biləsiniz.

- Övladlarınızdan gələcəyə dair ümidlərini və arzularını soruşun, onları həvəsləndirin. Beləliklə, onların həyatını neqativə aparacaq hadisələrin qarşısını almış olarsınız.

- İstedadları inkişaf etməyə başlayanda onların ən böyük dəstəkçisi olun.

- Günahlandırmadan və təhdid etmədən uşaqlarınıza sağlam olmayan və ağılsız cinsi əlaqənin bir çox risklərinin olduğunu və cinsi yolla keçən xəstəliklərin olduğunu izah edin. Onları çox sevdiyiniz üçün bu barədə danışmağı zəruri hesab etdiyinizi və gələcəkdə əziyyət çəkmələrini istəmədiyinizi bildirin.

- Söhbət qapılarını onların üzünə açıq tutun və danışdığınız şeylərin sizin aranızda qalacağını deyin.

- Davranışları ilə nümunə olmalarını xatırladın.

**Bunları edin:**

- Qızlarınıza menstruasiyanın nə olduğunu izah edə bilərsiniz.

- Oğlanlarda gecələr alt paltarlarını islatmaqdan danışın.

- Cinsi cazibənin təbəssümlə başladığını, öpüşməyə, toxunmağa keçə biləcəyini və bundan sonra cinsi əlaqənin baş verə biləcəyini izah edin.

- Qızlara oğlanın üzünə baxaraq "Xeyr" deməyi öyrədin.

- İzah edin ki, bəzən qızların uzağa baxıb heç nə deməməsi oğlan tərəfindən yanlış qiymətləndirilə bilər və bu cinsi istismara səbəb ola bilər.

- Uşağınızın fikirləri, dili və normaları haqqında məlumat əldə edin.

- Onlara cinsi yolla keçən xəstəliklər və QİÇS-in bədən mayelərindən keçə biləcəyini izah edin. Bu cür fəaliyyətlərdən uzaq durmalı olduqlarını vurğulayın.

- Nə vaxt cinsi əlaqə yaşaya biləcəkləri



barədə övladlarınızı məlumatlandırın.



Oğlanlar atalarından nəyin uyğun, nəyin uyğun olmadığını eşitsələr, daha məqsədəuyğun olardı. Yaxşı olar ki, analar oğullarına qadınlardan, atalar qızlarına kişilərdən danışsınlar.

Yeniyetmələrin QİÇS və cinsi yolla keçən xəstəliklər haqqında məlumatı olsa da, onların bu məsələyə əhəmiyyət vermədiyini görürük.

Cinsi aktiv yeniyetmələrin 10%-dən az hissəsi davamlı olaraq prezervativdən istifadə edir. Yeniyetmələrdə sifilis və süzənək xəstəliyinə çox rast gəlinir. Amerika yeniyetmələrin hamiləliyi və doğumunda lider ölkədir. 20 yaşından əvvəl hamilə qalan qadınların sayı isə ildə 1 milyondur.

*Ayşən Vəli*



Mətanət Məmmədova

# Yolun ortasında, düz qarşımda...

***Mətləbə keçməmişdən dünəndən bəri beynimdə dolaşan fikirləri yazmaq istəyirəm: heyif səndən abır, heyif səndən həya, heyif səndən ar, heyif səndən iffət, heyif səndən ismət, heyif səndən utanmaq hissi, heyif səndən özünə və başqalarına sayğı duyğusu... Heyif, heyif, heyif... Hara getdi bu gözəl keyfiyyətlər, duyğular, hisslər? Harada saldıq itirdik, axtardıq tapa bilmədik? Harada unutduq? Harada dəfn etdik görəsən?***

Bəzən elə hadisələrlə qarşılaşırsan ki, sözün həqiqi mənasında, təəccübdən az qalır dilin qurusun. Elə dünən matım-qutum quruduğu kimi. Deməli, işdən gedirəm. Qarşımda iki gənc-qız, oğlan gedir. İkisi də o qədər oxşar geyinmişdi ki... Yəni rəng seçimlərində. Mən də arxadan baxıb düşünürəm ki, nə gözəl geyiniblər bunlar. Gənclik ki, gənclik... Hər şey onlara necə də gözəl yaraşır. Həqiqətən gözümü bu gənclərdən çəkə bilmirdim.

Birdən nə baş versə, yaxşıdır? Məndən haradasa 5-7 metr qabaqda gedən həmin gənclər yolun ortasındaca birdən dayandılar, oğlan keçdi qızın qarşısına, qızı qucaqladı, qaldırdı, endirdi, sanki quluncunu qırırmış kimi görünüş yarandı. Sonra aralanıb yollarına davam etdilər.

Bunları seyr edərkən isə artıq mənim həqiqətən matım-qutum qurumuşdu. Onlarla bərabər mən də dayanmışdım. Niyə, bilmirəm. Az sonra mənə çatdı ki, yolun ortasında dayanmışam. Özümə "özünə gəl" deyib yola davam etməyə başladım. Necə davam etdim, ta deyə bilmərəm... Elə bil o hərəkətləri onlar deyil, mən etmişdim. O qədər utandım. Düz evə qədər yuxarıdakı sözləri təkrarlaya-təkrarlaya, deyinə-deyinə getdim.

Həqiqətən də heyif abır-həyamızdan, ismət-iffətimizdən. Hara getdi onlar? Axı biz o bizlər idik ki, küçədə, ictimaiyyət arasında "başı aşağı ol",-deyə tərbiyə almışdıq, bu səbəbdən də başımızı qaldırıb ətrafa baxmırdıq. Bir oğlanla küçədə qoşa gəzmək nədir, bu barədə düşünmək belə ağlımıza gəlməzdi.

Heyif itirdiyimiz ar-həyadan. Bizlər o bizlər idik ki, ata-qardaşımızın yanında ağzımızı açıb bir söz danışmırdıq, özümüzdən böyüklərin yanında yemək yemirdik. Uşağımızın ağlamaqdan bağrı çatlasa da, onların yanında qucağımıza götürmürdük.

Hələ yaşmağı gözünün altınadək çəkən qadınlarımızı demirəm. Yad kişi qapıya gələndə gözə görünməyən qız-gəlinləri demirəm. Qayınatasının gözünə görünməyən, onun yanında oturmayan, yemək yeməyən gəlinləri demirəm.

Bir az da oğlanlardan danışım. Oğlanlar vardı ki, ata-anası onun siqaret çəkməsini illərlə bilmirdi. Çünki utandığından bunu onlardan bütün gücü ilə gizlədirdi. Oğlanlar var idi ki, ata-anasının yanında həyat yoldaşı ilə söhbət etmirdi, övladını qucağına almırdı. Oğlanlar var idi ki, haqqında bir söz danışanda utandığından üzü qıpqırmızı olurdu.

Biz nə qədər müasirləşdik ki, yolun ortasında qulunc qırırıq, İlahi? Vallah, adam dəhşətə gəlir. İstəyirsən ki, gözlərinə inanmayasan. Axı inanmaya da bilmirsən. Düz didələrinin içinə girir bunların hərəkəti.

El arasında belə bir deyim var, gözlülər olsun, görməsin. Bu deyimi bax belə hadisələr zamanı deyirlər. Yəni hadisə o qədər dəhşətli olur ki, deyirlər ki, gözün ola, görən olasan, amma görməyəsən. Hə, bu deyim də artıq illərin əvvəlində qaldığı üçün, deyərdim ki, elə kor olasan, belə hadisələrlə qarşılaşmayasan.

İnsan nə qədər azad, nə qədər sərbəst, nə qədər düşüncəsiz, nə qədər də utanmaz olar ki, küçənin ortasında, insanların gözü qarşısında bu hərəkəti edə bilər, anlaya bilmirəm. Anladığım odur ki, çox təəssüflər olsun. Yuxarıda bəhs etdiklərimdən qalmayan əsər-əlamətə çox təəssüflər olsun.



# CANLI...

## FELYETON

***Hə, sizə nədən söhbət açım, "Canlı"dan. Axı indi dəbdədir, Tiktokda canlı açmaq. Elə bu gün həmin "Canlı"lardan birinin-başıbağlı bir qadının təsadüfən qonağı oldum. Qonağı oldum deyəndə ki, dedim görüm bu qadın camaata hansı bacarıqlarından söhbət açır. Gördüm yox, o, heç nə öyrətmir, elə hey danışır, qadınlarla söhbətləşir. Qadına Bakıdan, Bərdədən, nə bilim ta haralardan salamlar yağdırırlar. Biri yazır ki, məni tanıyırsan, Aytənin qızıyam, qadın da cavabında deyir ki, mən bir Aytən tanıyıram, ağbaş Aytən, onun qızısan? O biri tərəfdə də cavab verirlər ki, hə. Vəssalam, illərin həsrətliləri başlayır hal-əhvala...***

Bir xeyli vaxtdan sonra "Canlı" sahibi başıbağlı qadın deyir ki, durum gətirim bir az paltar ütüləyim. Başlayır paltar ütüləməyə və bu barədə danışmağa. Deyir ki, qızlar, elə mən qız vaxtından beləyəm. Yuyuram-yuyuram, yığıram, sonra tökürəm qabağıma, düz üç saat ütüləyib qurtarıram. Beləliklə başlayır paltar ütüləməyə. Deməli, paltarı necə ütüləyir, mən deyim, siz də dinləyin. Bir əli ilə ağzına alça qoyur, yeyir, o biri əli ilə paltarı götürüb, hardan gəldi ütünü basır üstünə. Gözü isə harada, təbii ki, telefonda, yadına düşəndən-düşənə paltarı düz üzünə çevirib qatlayır qoyur kənara. Paltar da nə paltar, tamam qırış-quruş.

Arada uşaqların səsi gəlir. Ana onlara çığırır ki, ay bala, səsinizi kəsin. Aradabir ütünü qoyub o biri otağa keçir, uşaqları necə görürsə, deyir ki, ay sağ ölün, həmişə belə sakit olasınız. Aradabir də o biri otağa keçir və deyir ki, tumu çırtlayıb divanın üstünə tökməyin.

Elə bu arada qızlardan biri sual verir ki, başını nə vaxtdan bağlayırsan, deyir ki, 2013-cü ildən. Sonra nə desə yaxşıdır, deyir ki, arada üç il açdım, iş tapa bilmirdim, ona görə. Sonra ailə qurdum, yenidən bağlandım.

Bu arada uşaqlardan biri ekranda görünür. Görürəm ki, uşağın əynində paltar yoxdur, lütdür. Deyirəm, yazıq uşaq sən nə üçün çılpaqsan? Bəs sənə soyuq dəymir?..

Qadın da ki, bir tərəfdən alça yeməkdə, bir tərəfdən ünvanlanan suallara cavab verməkdə, bir tərəfdən də paltardır ki, ütüləməkdə, üst-üstə yığmaqdadır...

Söhbət davam edir, Nələr, nələr, nələr... Nə işimə qalıb. Bir kənardan dayanıb sakitcə dinləyirəm ki, görüm axı burada axırda düz-əməlli bir söz eşidəcəyəm, ya yox. Gördüm səbir kasam daşır, telefonu bağlayıb atdım bir kənara. Ancaq eşitdiklərimi və gördüklərimi gəlin görək bir tərəfə ata bildimmi? Əsla.

Dedim qoy başlayım yazmağa ey, yazmasam, ölərəm. Yazım ki, paylaşım, əsəblərim sakitləşsin. Yazdıqca da öz-özümə sual verdim ki, İlahi, görəsən 3 saata necə həftə boyu yuyulan paltarı ütüləmək olar? Deməli, qadın iş-gücünü buraxıb burada qadınlarla söhbət edir, aynan yığışan paltarı da 3 saata yalandan ütüləyib atır bir kənara, həm deyir ki, mən beləyəm, baxın... Vallah, halaldır bu qadının ərinə. Qəribə səbri var...

Başını arada bağlayıb, açmaq söhbəti isə tam bir başqa mövzu oldu. Anlaya bilmədim, bağlanmaq nədir, arada açmaq nədir, sonra bir də bağlanmaq nə deməkdir. Anlayan olarsa, mənə də anlatsın, xahiş edirəm.

Qaldı gördüyüm digər mənzərə, uşağın çılpaqlığına. Yazıq uşaq, nə etsin ki, ananın başı "Canlı"ya qarışıb, o da lüt qalıb. Soyuq dəyib xəstələnəndə bu uşağın halı necə olacaq, vallah, bundan əsla baş çıxarmadım...

Yaza-yaza da öz-özümə dedim ki, şükür ki, elə hövsələm bitdi, bu "Canlı"ya sonadək baxmadım. Yoxsa, inanın ki, dəli olmaq üzrə idim. Baxdığım müddətdə isə elə hey bunu öz-özümə dedim: Allah sənə rəhmət etsin, Molla Nəsrəddin. Niyə bu vəfasız dünya səni ağuşuna alıb apardı? Axı sən bizə dünənkindən daha çox lazımdın. Gəl, haralardasan, gəl, gör ki, yazmağa nə qədər mövzu var cəmiyyətimizdə. Gəlsən, görsən, deyərsən ki, baho, biz nə yazmışdıq ki, mövzu burdadır ey...

***Mətanət Məmmədova***

# "Təxribatların törədilməsi sülh danışıqlarını tamamilə şübhə altına alır"



***"Sərhəddə törədilən erməni təxribatları təsdiq edir ki, Ermənistanın sülh barədə verdiyi bəyanatların heç bir əsası yoxdur". Bunu hərbi ekspert Ədalət Verdiyev "Səs" qəzetinə açıqlamasında deyib.***

Onun sözlərinə görə, Ermənistan heç bir zaman sülh danışıqlarında səmimi olmayıb və belə bir niyyəti də indi də yoxdur: "Əvvəllər olduğu kimi də, bu dəfə də danışıqlar öncəsi Ermənistan tərəfi genişmiqyaslı təxribatlara əl atıb və bu təxribatlarının qarşısının alınması üçün Azərbaycan tərəfi kifayət qədər ciddi tədbirlər görəcək. Adekvat cavab tədbirləri çərçivəsində erməni ciddi şəkildə cəzasını alacaq. Bu təxribatların törədilməsi sülh danışıqlarını tamamilə şübhə altına alır. Azərbaycan ordusunun hərbi qulluqçusu öz tarixi torpağından açılan atəşlə xəsarət alırsa, belə bir vəziyyətdə hansı sülh danışıqlarından söhbət gedə bilməz. Ermənistana sülh lazım deyilsə, Azərbaycana bu sülh heç lazım deyil. Bizim üçün sülh Azərbaycan əraziləri 30 illik işğal altında qalan müddətdə lazım idi. İndi sülh daha çox Ermənistana lazımdır".

***GÜLYANƏ***





**Elçin Bayramlı**

# Sayğaclar necə sayacaq?

Əhali arasında kommunal xidmətlər sahəsində ən çox müzakirə olunan məsələlərdən biri də sayğaclarla bağlıdır. Kommunal təchizatçılar abonentlərin sayğaclara müdaxilə etdiyini deyir, abonentlər isə sayğacların çox yazdığını iddia edir. Bu iddiaların hər birində həqiqət payı var. Belə ki, bəzi abonentlər hər ay standart olaraq eyni həcmdə istifadə etsə də, onlara ikiqat çox ödəniş qəbzi gəlir. Misal üçün Azərsu ilə bağlı belə şikayətlər daha çoxdur.

Azərenerji-nin sayğacları ilə bağlı problem isə ondan ibarətdir ki, bəzi hallarda bu sayğaclar yeni binaların zirzəmisində yerləşir və sakinlərin ora girmək imkanları yoxdur. Bu halda elektrik idarəsinin əməkdaşı istənilən qəbzi yaza bilər, çünki sayğacı yalnız o görür və o müdaxilə edə bilər. Bəzi həyət evlərində abonentlər sayğaca asanlıqla müdaxilə edə bilirlər ki, bu da problemin başqa tərəfidir.

Azəriqaz-da isə məsələ bir qədər başqadır. Qaz sayğacları bir neçə fərqli sistemdədir, mexaniki və smart tiplilər olmaqla. Bəzən əvvəlki sayğac sıradan çıxdıqda abonentə yenisi quraşdırılır, amma abionet yeni sayğacın bir qədər çox yazdığını deyir. Bu hallarda məsələ araşdırılır və abonentin iştirakı ilə sayğacın laboratoriyada yoxlanması təşkil olunur. Bundan başqa, abonentlərin sayğaclara müdaxilə halları da çoxdur ki, bunların aşkar olunması üçün əlavə qüvvə tələb olunur.

Ümumilikdə götürsək, sayğacların müxtəlif xarici şirkətlərdən alınması və onların texniki tiplərinə görə fərqli modelllər olması qarışıqlıq yaradır. Ona görə də, vahid sayğaca keçmək və bu sayğacların ölkədə istehsalını təşkil etmək daha məqsədəuyğun olardı. Bu halda həm idxal üçün xeyli vəsait xərcləməyə lüzum qalmaz, həm ehtiyat hissələr problemi yaranmaz, həm də bütün abonentlərdə eyni sayğac olmuş olar.

Təqdirəlayiqdir ki, ilk olaraq Azəriqaz İB bu işə başlayıb. Azəriqaz-dan əldə etdiyim məlumata görə, növbəti aydan başlayaraq məişət tipli qaz sayğaclarına olan tələbat yerli istehsalın hesabına təmin olunacaq və qısa müddətdə bütün əhali abonentləri üçün birtipli sayğaclar quraşdırılacaq. Bu məqsədlə 2021-ci ilin noyabr ayının 4-də SOCAR "Azəriqaz"la "Gəncə Cihazqayırma Zavodu" arasında memorandum imzalanıb.

Memorandum çərçivəsində zavod tərəfindən 2000 ədəd qaz sayğacının "Azəriqaz" İB-yə təqdim olunması təmin edilib. Həmin qaz sayğacları sınaq qurğularında yoxlanılıb və qaz şəbəkəsində quraşdırılması həyata keçirilib. Sözügedən yoxlama və sınaqlar zamanı heç bir qüsur aşkar edilməyib. Bir neçə gün əvvəl məişət tipli qaz sayğaclarına olan tələbatın yerli istehsal hesabına tam ödənilməsi məqsədi ilə tərəflər arasında müqavilə bağlanıb.

Qeyd edək ki, zavod Almaniyanın nüfuzlu şirkətlərindən biri ilə müqavilə bağlayıb və bu cihazların Azərbaycanda istehsalı müştərək həyata keçiriləcək.

"Gəncə Cihazqayırma Zavodu" ASC tərəfindən iyun ayından etibarən ümumilikdə 405 min ədəd sayğacın kütləvi istehsalına başlanılacaq. İl ərzində sayğaclar istehsal olunaraq "Azəriqaz"a təhvil veriləcək. İlk növbədə yeni binalarda və evlərdə quraşdırılacaq, həmçinin texniki istismar dövrünü tamamlamış sayğaclar dəyişdiriləcək.

Bu sayğaclar sonradan ödənişli sistemlidir. Bu isə, əhali üçün daha ədalətli və sərfəlidir. Belə ki, hazırki smart sayğaclarda abonent hələ işlətmədiyi qazın pulunu əvvəldən karta ödəyir. Yeni sayğaclar isə bir növ mexaniki və smart sayğacın hibridi olacaq. Yəni, sadə mexaniki sayğaca xüsusi elektron qurğu quraşdırılacaq ki, bu da sayğacın məsafədən idarə edilməsinə də imkan verəcək. Yəni, abonent üçün daha rahat olacaq. Bu sayğaclarda koda düşmə, ödənişdən sonra qazın verilməsi üçün müəyyən müddət gözləmə kimi problemlər də olmayacaq.

Yaxşı olardı ki, Azərnerji və Azərsu da problemli sayğacların təkmilləşdirilməsini həyata keçirsinlər ki, abonentlərdə narazılıq yaranmasın.

Ümumiyyətlə, sayğacların ölçmə parametrlərini yoxlamaq imkanı abonentə verilməlidir. Müvafiq dövlət orqanları mütamadi olaraq buna nəzarət etməlidirlər. Bu, həm şəffaflığın təminatına xidmət edər, həm də kommunal təchizat sahəsində narazılıqları aradan qaldırar.

# Bakı ilə İrəvan arasında sülh sazişi üzrə danışıqlar niyə nəticə vermir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***İqor Korotçenko: Qərb yaxşı bilir ki, Qafqazda hər an "aktivləşə" bilən gərginliyi, alovlanan silahlı münaqişəni saxlamaq onun maraqlarına uyğundur.***



Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko Qərb və Rusiya platformalarında Ermənistan-Azərbaycan danışıqları barədə "Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamları şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- İqor Yuriyeviç, Qərb indi yenidən Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinə fəal şəkildə qoşulub. Ötən həftə ABŞ-da iki ölkənin xarici işlər nazirləri arasında dördgünlük danışıqlar aparılıb, mayın 14-də Avropa İttifaqı Şurasının rəhbərinin vasitəçiliyi ilə Brüsseldə, iyunun 1-də isə Moldovada Fransa prezidenti və Almaniya kanslerinin iştirakı ilə Aİ forumunda iki ölkə liderləri arasında danışıqlar baş tutacaq. İntensivlik birmənalı olaraq səbəbsiz deyil, lakin Azərbaycan tərəfi bildirir ki, Bakının gözləntiləri hələ də özünü doğrultmayıb. Niyə heç bir nəticə yoxdur?**



- Səbəb İrəvanın eyni siyasətidir ki, Ermənistan tərəfi ərazi bütövlüyünün qarşılıqlı tanınması ilə ədalətli və obyektiv şərtlərlə sülh müqaviləsi imzalamaq əvəzinə manevr etməyə, qeyri-konstruktiv dildən istifadə etməyə, sülh müqaviləsində Qarabağın statusu məsələsini özündə saxlamağa cəhd etməkdə davam edir. Elə etmək istəyir ki, separatçılar danışıqlar prosesində tərəf kimi mövqe tutsunlar. Amma bu mümkün deyil. Azərbaycanın ərazi bütövlüyü bərpa olunub. Qarabağın erməni sakinləri dəfələrlə Bakıya gəlməyə və onların Azərbaycan Respublikasının hüquq sahəsinə inteqrasiyası üçün danışıqlara başlamağa dəvət olunublar. Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, danışıqlar prosesi iki istiqamətdə gedir- faktiki olaraq Bakı ilə İrəvan arasında sülh müqaviləsi və ölkələr arasında münasibətlərin normallaşdırılması, Bakı ilə Qarabağın erməni icması arasında onların reinteqrasiyasına dair danışıqlar- hansı ki, bu İrəvana aid deyil.

İrəvan separatçıları dəstəklədiyini göstərməyə və Qarabağ problemi səhifəsinin çevrilməməsinə çalışır. Bu, erməni siyasətidir.

Aydındır ki, danışıqların pozulmasına səbəb təkcə Ermənistanın qeyri-konstruktiv mövqeyi deyil, həm də Qərbin Cənubi Qafqazdakı hərəkətləridir. Qərb yaxşı bilir ki, Zaqafqaziyada hər an "aktivləşə" bilən gərginliyi, alovlanan silahlı münaqişəni saxlamaq onun maraqlarına uyğundur. ABŞ, Avropa İttifaqı, Fransa üçün bu ən yaxşı seçimdir. Çünki Azərbaycanla Ermənistan arasında davam edən qarşıdurma və qaynayan münaqişə kontekstində "çirkli suda balıq tutmaq", Azərbaycana təzyiq göstərmək, Ermənistanı manipulyasiya etmək və Rusiyaya zərbə vurmaq, o cümlədən nəqliyyat kommunikasiyalarının inkişafına mane olmaq yolu ilə daha çox divident əldə etmək olar. Bu, regionda Rusiya üçün strateji əhəmiyyət kəsb edən "Şimal-Cənub" nəqliyyat dəhlizinə də aiddir.

Biz başa düşürük ki, Paşinyan bir neçə danışıqlar formatını- ABŞ dövlət katibinin, Avropa Şurasının rəhbərinin iştirakı ilə prosesə cəlb etmək üçün hər şeyi edir. Bunun arxasında Qərbin maraqları dayanır. Və bütün bunlar Nikol Paşinyanın razılığı ilə baş verir. Danışıqlarda müxtəlif qərbyönlü platformaların formalaşmasında əsas günahkar odur. O, ABŞ və ya Avropa İttifaqına arxalanaraq kursda müəyyən siyasi dividendlər əldə etməyə çalışır. Ermənistanın baş naziri Fransa prezidenti Makronu və artıq Almaniya kansleri Olaf Şolzu öz tərəfində danışıqlar prosesinə cəlb etməyə çalışır. Ona görə də Azərbaycan və Ermənistan liderlərinin iyunun 1-də Moldovada Avropa Siyasi Birliyinin sammiti çərçivəsində elan olunmuş görüşü sırf ermənipərəst sxem kimi görünür. Təbii ki, Azərbaycan Prezidenti bütün bunları görür. Amma danışıqlar prosesini davam etdirmək lazımdır, hər halda Bakı bu prosesdə güclü mövqedən çıxış edir. Axı Ermənistanın üçtərəfli bəyanatı yerinə yetirməsi prinsipcə kifayət idi. Amma o bunu istəmir.

Bütün bunların fonunda Kapitolidə Ermənistanın maraqlarını müdafiə edən lobbiçilərin səsi eşidilməkdə davam edir.

İrəvan həmçinin beynəlxalq təşkilatları sülh müqaviləsinə sənədin icrasının təminatçısı kimi daxil etmək istəyir. Burada heç bir beynəlxalq zamin ola bilməz. Çünki bu, Ermənistanın vəziyyəti öz tərəfində oynamaq üçün manipulyasiyasıdır.



Belə bir şəraitdə danışıqlar naminə danışıqlar, yəqin ki, heç kimə lazım deyil, amma Azərbaycan buna baxmayaraq, prosesə məsuliyyətlə yanaşaraq, danışıqlarda iştirak edir. Amma nə vaxta qədər görüşə bilərik? Axı, 2020-ci ilin noyabrından bəri nə qədər görüşlər gördük və məsələlər hələ də qalır.

İrəvanda terrorçuları vəsf edən abidələrin ucaldılmasının davam etdiyini görürük.

Bu cür faktlar toplusu açıq şəkildə göstərir ki, İrəvanla yalnız diplomatik və siyasi vasitələrlə razılığa gəlmək mümkün olmayacaq. Son illərin bütün təcrübəsi göstərir ki, yalnız siyasi və diplomatik vasitələrin Azərbaycanın məqsədyönlü hərbi hərəkətləri ilə birləşməsi istənilən real nəticə verir.

Danışıqlarda indiki vəziyyətdə heç bir möcüzə olmayacaq, möcüzələrə inanmıram. Ermənistanın baş naziri siyasi hazırcavablıq nümayiş etdirməkdə davam edir. Onun əsas vəzifəsi özünü və komandasını hakimiyyətdə saxlamaqdır. İnsanlar gücün maddi ləzzətlərini hiss etdikləri və özlərini yaxşı hiss etdikləri üçün hakimiyyətdən ayrılmaq istəmirlər. Oraya çatdıqdan sonra dişləri ilə onu didirlər. Bunun üçün cəmiyyətin əhvalını manipulyasiya etmək üçün Paşinyanın Qarabağ ermənilərinin maraqlarının müdafiəçisi obrazını canlandırması, hansısa qlobal missiyanı öz üzərinə götürməsi vacibdir. 2023-cü ilin may ayından etibarən Nikol Paşinyan təəssüf ki, Ermənistanın əvvəlki təhlükəli və zərərli, qeyri-konstruktiv münasibətindən, Azərbaycana qarşı ərazi iddialarından əl çəkə və Bakı ilə sülh sazişi bağlaya bilmir.

Paşinyan rejiminin könüllü olaraq mövcud reallıqları tanımağa razı olacağına dərin şübhələrim var. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat Zəngəzur dəhlizi layihəsini həyata keçirməkdən rəsmən imtina edən İrəvan tərəfindən tam yerinə yetirilmir, dövlət sərhədi demarkasiya və delimitasiya olunmur.

Ona görə də çox güman ki, vəziyyət Laçın dəhlizi ətrafında baş verən hadisələr əsasında inkişaf edəcək, o zaman ki, Azərbaycan əvvəlcə Ermənistandan kifayət qədər uzun müddət konstruktivlik gözlədi, amma bunu görmədi və ardıcıl təxribatlardan sonra orada nəzarət məntəqəsi yaratmağa məcbur oldu. Keçid məntəqəsi var idi, daha bir yeni reallıq meydana çıxdı. Yəni nəticəni belə qərarlar ərazidə qəbul ediləndə görürük. Ermənistan tərəfi isə belə qərarları tanımalıdır. Ermənistanda onlar ancaq de-fakto baş verən dəyişiklikləri başa düşə bilirlər. Fəryadlarla, iniltilərlə. Ermənistan artıq Azərbaycana hərbi yolla təsir edə bilmir. O, ancaq silahlı təxribatlarla yeni qeyri-sabitlik yaratmağa və regiona yeni oyunçular cəlb etməyə qadirdir ki, bu da faktiki olaraq Ermənistandakı bədnam Aİ monitorinq missiyasının simasında baş verib.

Danışıqlar masasında isə eyni konstruktivlik və səmərəsizlik böyük ehtimalla davam edəcək. "Danışıqlar üçün danışıqlar" sonsuza qədər davam edə bilər. Buna misal olaraq bir neçə onilliklər ərzində "diplomatik turizm" həyata keçirməklə, laqqırtı ilə məşğul olan, fəaliyyəti münaqişənin həllinə gətirib çıxarmayan Minsk qrupunun fəaliyyətini göstərmək olar. Və 44 günlük müharibə münaqişəni həll etdi və yeni reallığa gətirib çıxardı.

Bir şey dəqiqdir: Ermənistan xoşməramlılıq nümayiş etdirməsə, demaqogiya, populizm, siyasi söhbətlər etməkdə davam edərsə, sülh sazişi ilə bağlı müsbət nəticə gözləmək olmaz.

**- Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında mayın 19-da Rusiya paytaxtında danışıqların keçiriləcəyi açıqlanıb. Liderlərin Rusiya ərazisində görüşündən də söhbət gedir...**

- Rusiyanın vasitəçiliyi ilə aparılan danışıqlar həmişə yeganə səmərəli danışıqlar olub. Çünki Moskva regionda sülhü hədəfləyir. Moskva həmişə postsovet məkanında gedən proseslərin fəal moderatoru olub. İkinci Qarabağ müharibəsi zamanı hərbi əməliyyatların dayandırılması Rusiyanın fəal vasitəçilik səyləri sayəsində mümkün olub. Cənubi Qafqaz regionunda və Xəzərdə xarici oyunçuların olmaması Rusiyanın maraqlarına uyğundur. Düşünürəm ki, bu mövqe, bəlkə də Ermənistan istisna olmaqla, bütün regional oyunçular tərəfindən bölüşdürülür. Hətta Gürcüstan bu gün İrəvandan qat-qat məsuliyyətli və praqmatik davranır. Çünki Gürcüstanın siyasəti milli maraqlar üzərində qurulub. İrəvanın siyasətinin mərkəzində isə Paşinyanın siyasi sağ qalması cəhdi dayanır. Və bunlar iki böyük fərqdir.

Neçə dəfədir ki, Paşinyana və ondan əvvəlki Ermənistan hakimiyyətinə uzun müddətdir davam edən münaqişənin həlli üçün müxtəlif variantlar təklif olunub. Amma İrəvan hündür zəng qülləsindən hamının üstünə tüpürüb, oturacağını zənn edib. Erməni siyasi elitasının lovğalığı Ermənistan üçün fəlakətə səbəb olub.

**- Sizcə, baş nazirin 9 may Qələbə paradı üçün Rusiya paytaxtına səfəri zamanı Putin və Paşinyan bağlı qapılar arxasında danışıqlar aparıblarmı?**

- Çox güman ki, liderlər bu mövzuya Ermənistan-Azərbaycan danışıqlar prosesi ətrafında vəziyyət aspektində toxunublar.

***Tərcümə - Elçin Bayramlı***

# Normadan çox su içmək zəhərlənməyə səbəb ola bilər

*Az su içmək zərərli olduğu kimi, çox su içmək də ziyanlıdır.*



Lent.az xəbər verir ki, bəzən idman və ya gərgin məşqlər zamanı həddindən artıq su içilir. Bu zaman insanda su zəhərlənməsi baş verə bilər. Su zəhərlənməsi isə balanssızlıq, ürəkbulanma və qusma yaradır. Çox nadir hallarda isə o ölümcül problemlərə gətirib çıxarır.

Bədənin düzgün işləməsi üçün suya mütləq ehtiyac var. Ancaq nəzərə alınmalıdır ki, böyrəklər saatda 0,8-1 litr su xaric edə bilir. Qəfil çox su qəbul edilməsi orqanizmin elektrolit balansını poza bilər.

**Bəs, çox su içməyin təhlükələri nələrdir?**

İnsan həddindən artıq su qəbul etdikdə beynindəki hüceyrələr şişməyə başlayır və kəllə daxilində təzyiq artır. Bu da qusmaya, müəyyən ağrılara səbəb olur.

Çalışıb həyat tərzinizə uyğun su içmək lazımdır. Diyetoloq Nupur Krişnanın fikrincə, əgər oturaq həyat tərzi keçirirsinizsə və çox tərləyirsinizsə, 2-2,5 litrdən çox su içmək məsləhət görülmür. Əks halda içdiyiniz su böyrəyinizdə yığılıb şişlik yaradar.

# “”Şirinlik” təhsilimizə başucalığı gətirən əlamət deyil”



***“Qulaq gündə təzə söz eşitməsə kar olar” - atalar sözündə həqiqət varmış... “8 mart Qadınlar Günü” və 5 oktyabr “Müəllimlər Günü” münasibətilə pul yığılması, hədiyyə alınması ənənəsinə, birinci siniflərə qəbul zamanı "şirinlik" verilməsi yarlığı da əlavə olundu. Bu, bayram günlərində kimin nə məqsəd daşıdığından asılı olmayaraq, müəllimi və ya məktəb rəhbərliyinin digər nümayəndələrini təbrik etmək üçün hədiyyə vermək və yaxud hədiyyə almaq üçün pul yığmağı haradasa başa düşdük, ancaq birinci siniflərə qəbul zamanı birinci siniflərə qəbul zamanı "şirinlik" verilməsi verilməsinin başa düşülməsi bir az qəliz məsələdir. Belə çıxır ki, "şirinlik"lə uzun illərdən bəri əsasını qoyduğumuz “təməl daşını” bir az da möhkəmləndirmiş oluruq". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.***




Nadir İsrafilov sözlərinə belə davam edib: ”Digər ölkələri və xalqları deyə bilmərəm, ancaq onu bilirəm ki, ”şirinlik” anlayışı türklərdə də (belirtme həvli şirinliği), ruslarda da (maqarıç) var. Lakin, bu kimi və ya kimlərisə xoş bir hadisə münasibətilə qonaq etmək, bizim dildə desək şirinlik vermək anlamına gəlir. Elə bizim özümüzdə də kiminsə övladı olanda, övladı ali məktəbə daxil olanda, hərbi xidməti başa vurub ailəsinə qayıdanda şirinliklər, qonaqlıqlar verilər. Və bizim mentalitetə görə adətən ”şirinlik” verilir, istənilmir. Görünür, bir az da “irəliyə getmək” iddiası bu sahəyə də sirayət edib, getdikcə “təkmilləşmə” vasitəsinə çevrilib.

İstənilən halda təhsilimizə baş ucalığı gətirən əlamət deyil. Məsələnin kökü bir çox məktəblərdə şagird yerlərinin defesit olması ilə əlaqədardır. Defesiti aradan qaldırmaq lazımdır. Baxmayaraq ki, bu istiqamətdə müəyyən işlər görülüb və görülməkdədir.

2023-2024-cü dərs ilində ümumi təhsil müəssisələrinin birinci siniflərinə elektron sənəd qəbulu ilə əlaqədar alternativ qeydiyyat mərkəzləri fəaliyyət göstərir. Sistemi vasitəsilə özü elektron qeydiyyatdan keçə bilməyən və ya internet resurslarına çıxış imkanı olmayan vətəndaşlar aidiyyəti ərazi üzrə fəaliyyət göstərən ən yaxın alternativ qeydiyyat mərkəzinə müraciət edə bilmələri üçün şərait yaradılıb. Belə qənaətə gəlmək olur ki, əgər sistem tərəfindən sənədlər qəbul edilibsə, bu prosesdə məktəb direktorunun edə biləcəyi bir şey yoxdur. Bununla belə sistemdə olan müəyyən boşluqlar, texniki nasazlıqlar bu kimi halların yaranmasına əsas verə bilər. Bir də ki, Nazirlik rəsmisi yarana biləcək məsələyə kifayət qədər aydınlıq gətirib: “Belə hallarla qarşılaşan zaman valideynlər Elm və Təhsil Nazirliyinin qaynar xəttinə, hüquq-mühafizə orqanlarına müraciət edə bilərlər. Bu kimi hallar qarşılıqlı anlaşma yolu ilə baş verdiyi kimi, bunun qarşısı da ancaq qarşılıqlı səylər yolu ilə alına bilər. Əslində elektron sənəd qəbulu “şirinlik”lə bağlı sövdələşməni minimuma endirməlidir”.

***Ayşən Vəli***

# Sabunçuda mağazadan və evdən 8 min manatlıq oğurluq olub

Sabunçu mağazadan və evdən 8 min manatlıq oğurluq edilib. Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ayrı-ayrı vaxtlarda rayon ərazisindəki bir mağazadan və bir evdən ümumilikdə 6 min 200 manat, 1800 manat dəyərində geyim və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Yevlax rayon sakini Həvva Bəkirova müəyyən edilərək saxlanılıb. Araşdırma aparılır.



# Aeroport yolunda iki avtomobil toqquşub



Bakının Suraxanı rayonunda ağır yol-nəqliyyat hadisəsi olub. SİA xəbər verir ki, qəza aeroport yolunda qeydə alınıb. Yolda ”Hyundai” və ”Toyota Prius” markalı avtomobillər toqquşub. İlkin məlumata görə, qəza nəticəsində 3 nəfər xəsarət alıb. Xəsarət alanlar 3 saylı şəhər xəstəxanasına yerləşdirilib. Əraziyə polis əməkdaşları cəlb edilib. Fakt araşdırılır.

# “Nar” dan yeni xidmət: “İmzalı zəng”

***“Nar”, abunəçiləri üçün zənglərə şəxsi imzasını qoymağa imkanı verən yeni “İmzalı zəng” xidmətini təqdim edib. Belə ki, sizin zənginizi qəbul edən şəxs nömrəniz ilə yanaşı, təyin etdiyiniz mətni yəni, imzanızı da görə bilir. Beləliklə, kim olduğunuz və nə üçün zəng etdiyiniz dərhal anlaşılır.***




“İmzalı zəng” xidmətinə qoşulmaq üçün abunəçilər 5111 nömrəsinə SMS vasitəsilə START yaza və ya *511#YES şifrəsini yığıb açılan meynuda 1 yazaraq abunəliklərini təsdiqləyə bilərlər. Korporativ tariflər üçün “İmzalı zəng” xidmətinin aylıq abunə haqqı 1,99 AZN, öncədən ödənişli tariflər üçün isə gündəlik istifadə haqqı 0,10 AZN təşkil edir. Həmçinin, qeyd edilən xidməti sınaq müddətində yoxlamaq imkanı da var: korporativ abunəçilər 30 gün, fərdi istifadəçilər isə 3 gün pulsuz istifadə edə bilərlər. “İmzalı zəng” xidməti haqqında daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

Qeyd edək ki, “Nar” müştəriyönümlülük siyasətinə sadiq qalaraq, abunəçilərinə hər zaman innovativ xidmətlər təqdim edir. Mobil operatorun bütün məhsulları haqqında nar.az saytından ətraflı məlumat əldə edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**